# ATATÜRK VƏ NƏRİMANOV

Bakı - 2003

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

Türk ordusunun Azərbaycanı
bolşevik-daşnak əsarətindən
xilas etməsinin 85 illiyinə
və
Türkiyə Cümhuriyyətinin
80 illiyinə həsr edirəm

*Kitabda iki qardaş xalqın Atatürk və Nərimanov kimi liderlərinin çətin ayaqda, dar gündə bir-birinə əl tutmalarından, yardım etmələrindən danışılır. Eyni zamanda Azərbaycan ədəbiyyatında ilk dəfə N.Nərimanov və Şərq məsələsinə toxunulur, bu istiqamətdə tədqiqat aparılır.*

# TÜRK DÜNYASININ LİDERİ ATATÜRK



Türkiyənin üçüncü prezidenti Cəlal Bayar ölkənin qurucusu və bütün Şərqin lideri Mustafa Kamal Atatürk torpağa tapşırılarkən demişdi: «Atatürk, səni sevmək milli bir ibadətdir». Bu böyük bir xalqın, qoca bir millətin əvəz olunmaz rəhbərinə əbədi məhəbbətin, ümumxalq sevgisinin heç vaxt sönməyəcəyini ifadə edirdi.

Azərbaycan xalqının dahi rəhbəri, böyük siyasət adamı Heydər Əliyev Atatürkə olan ümumxalq məhəbbətini ifadə edərək demişdi: «Atatürkün dahiliyi, müdrikliyi bizim üçün ilham mənbəyidir».

Atatürk 600 illik Osmanlı imperiyasının dağılmasından sonra Türkiyəni, bu imperiyanın bir hissəsini qoruyub saxlamaq, onu türk dünyasının əzəmətli dövlətinə çevirmək üçün nə qədər böyük və misilsiz xidmət göstərdiyinin hamı şahidi oldu. Antanta dövlətləri Türkiyəni öz aralarında bölməyə hazırlaşırdılar. Yunanlar ölkənin əsas hissələrini zəbt etmişdi və sürətlə irəliləyirdilər. Bundan əlavə ölkədə ikihakimiyyətlilik hökm sürürdü. Biri yeni Türkiyə yaratmağa çalışan Ankarada xalq hakimiyyəti olan Böyük Millət Məclisi, biri də İstanbulda Antanta dövlətlərinin əlində oyuncaq hesab edilən, son günlərini yaşayan sultanlıq və xəlifəlik. Belə bir agır şəraitdən qələbə

ilə çıxmaq böyük şücaət tələb edirdi. Mustafa Kamal Paşa hələ 1919-cu ildə xalqa üz tutub deyirdi: «Ya istiqlal, ya ölüm!». həmin müraciətdə onu da göstərirdi ki, «türkün heysiyyəti, qüruru və qabiliyyəti çox yüksək və böyükdür. Belə bir millət əsir yaşamaqdansa məhv olmağı daha yaxşıdır.»

Atatürkün ölkəni sadəcə saxlamaq yox, hər cəhətdən müasir bir ölkəyə çevirmək yolunda necə çalışdığını göstərmək üçün bircə faktı qeyd etmək lazımdır. O deyirdi: «Mənim dil və tarixlə məşgul oldugumu görən qısa düşüncəli bəzi vətəndaşlarıız «Elə bil paşanın işi yoxdur! Dillə, tarixlə məşgul olmaga başladı»-deyirdilər. Mənim işim bu saat başimdan aşir! Mən bu gün çağdaş bir Türkiyəni qurmağa nə qədər çalışsam da, sabahın Türkiyəsinin təməl daşlarını atmaga da o qədər diqqət yetirməliyəm».

O zaman Türkiyəni heç bir Avropa dövləti tanımırdı, heç kəs də ona yardım əlini uzatmırdı. Türkiyə tamam tək qalmışdı. Burada yeni bir respublika qurulduğu üçün imperialist dövlətləri onu beşiyində boğmağa hazır idilər. Buna baxmayaraq Atatürk inamla deyirdi ki, biz yepyeni bir ölkə quracayıq. Bu yeni bir Türkiyə yaradacaq adam tək və yeganə kişi Müstafa Kamal Paşa idi. O deyirdi: «Bir vətən, bir millət istiqlalı qurtula bilməz. Tarix belə bir hadisəni qeyd eməmişdir».

Mustafa Kamal Paşa bu sözləri Türkiyənin ən ağır zamanlarında deyirdi. O, belə bir vaxtda ictimai borcunu çox gözəl bilən və böyük məsuliyyətlə həyata keçirən şəxsiyyət idi. Zamanın, tarixin sınaqlara çəkdiyi türkiyənin düşdüyü vəziyyətdən çıxış yolunu o, belə izah edirdi: «Heyf ki, Türkiyənin çökməyi ən çox əxlaqi və mənəvi sahəyə qədər yayılmış görünür. Heç şübhə yoxdur ki, bu böyük məmləkəti, bu qoca milləti məğmun və yoxolmağa sürükləyən başlica səbəb bu olmuşdur». Bilirdi



ki, "maddi və mənəvi cəhətdən çökmək insanda qorxu ilə... başlayar». Birinci növbədə bu qorxunu aradan qaldırmaq, insanlarda nikbin əhvali-ruhiyyə yaratmaq lazımdır.

Türkiyənin lideri hər şeydən əvvəl türk vətəndaşlarına yeni inam, əqidə və qorxmazlıq aşılamağa çalışır və deyirdi: «Bir həqiqət də vardır. O həqiqət budur: Türkiyənin düşünən qafalarına büsbütün yeni bir inam aşılamaq.... Bütün millətə təptəzə bir ruh vermək».

Bu ruhu, bu inamı vətəndaşlar Mustafa Kamal Paşanın özündən alırdılar.O, bütün çətinliklər qarşısında dayanır və xalqı ruhlandıraraq deyirdi: «Əfəndilər, bu durum qarşısında bir tək qərar vardır, o da milli hakimiyyətə dayanan, qeydsiz-şərtsiz, bağımsız yeni bir Türkiyə qurmaq».

Əslində o zaman Türkiyədə vəziyyət çox ağır idi. Xarici düşmənlər, xüsusən İnqiltərə, Yünanıstan onun torpağını zəbt etmiş, əhalisinin bir hissəsinə hakim kəsilmiş, müharibə hələ çəkilməmişdi. Bunlardan əlavə ölkənin əli aşagı idi, ordunu döyüş vəziyyətinə gətirmək üçün büdcədə bir qəpik pul yox idi. Ölkədə çox böyük ruh düşgünlüyü var idi. Şükrü Qaya ürək ağrısı ilə deyirdi: «1923-cü il Dövlətimizin quruluş ili idi, inanc və həvəsdən başqa hər şeyin yoxlugunu çəkirdik. Hər şeyin başında «Pul yoxdur!» dururdu. Dövlət büdcəsi böyük açıqla qapanır, inflyasiya azdıqca azırdı. Həm inflyasiyanın öhdəsindən qəlmək, həm də yoxluğa yuvarlanmış ölkənin ehtiyaclarının qarşısını almaq zorundaydıq. Millət vəkillərindən çoxlu nazir həvəskarı vardı, amma heç kəs maliyyə naziri olmaq istəmirdi».*

Bu məsələ «bəlkə hər kəsdən çox məni məşgul etmək-

* İsmət Bozdağ, Atatürkün Avrasiya dövləti, Ankara,1999, səh. 86

dəydi» - deyirdi Mustafa Kamal Paşa. Çoxlarının dediyi belə xoşagəlməz sözləri də eşidirdi: «Pulumuz vardır, ordu düzəldərik, pul qurtardı, ordu dağılsın».

Amma Mustafa Kamal Paşa buna başqa səmtdən yanaşır və qətiyyətlə deyirdi: «Əfəndilər, pul vardır, ya yoxdur, istər olsun, istər olmasın, ordu vardır və olacaq». O, bilirdi ki, ölkəni, milləti hər bir bəladan qurtaran ordudur. Belə bir ordunu o, yaratdı. *Təsadüfi deyildir ki, 1938-ci ildə həmin ordunun mühüm vəzifəsini ifadə edərək yazırdı:* «Türk vətəninin və türk dünyasının şan və şərəfini, daxili və xarici hər türlü təhlükələrə qarşı qorumaqdan ibarət olan vəzifəsini hər an yerinə yetirməyə hazır və ayıq olduğuna mənim və böyük Ulusumuzun tam bir inam və etimadımız vardır».*

Mustafa Kamal Paşanın böyüklüyünü hamı hiss edirdi. Bir dəfə Zəki adlı cavan bir həkim cəsarətlənib Paşanın qarşısına çıxmış və ürəkdən gələn sözlərini belə demişdi: «Siz komandan olaraq başarıqlı, dövlət adamı olaraq böyük, lider olaraq bulunmaz bir insansınız! Doğruların içindən «ən doğru» olanı seçir, seçdiyiniz doğrularla milləti inandırırsınız! Az gəlir dünyaya sizin ölçünüzdə insan! Onun üçün biz də sizə güvənirik!»**

Həkim Zəki bir məsələni də demişdi: «Səltənəti dağıtdıq, xilafəti yox etdik, Cümhuriyyəti qurduq. Başımızdan fəsi, yazımızdan ərəb həriflərini atdıq. Bu gün Məcəllənin yerinə oturmuş bir mədəni qanunumuz vardır. Bu qədər qısa bir dövr içində bu nailiyyətləri ancaq Sizin kimi bir öndər ilə görülə bilərdi».

Bəli, həkim Zəki düz deyirdi, hələ deyə bilmədiyi şeylər də vardır. Bunları həyata keçirməyi bacaran Atatürk kimi bir öndər lazım idi. O, hökuməti yaradarkən birbaşa demişdir: «hakimiyyət qeydsiz-şərtsiz millətindir.» Amma milləti düz istiqamətə yönəltmək lazım idi, tarixin ən çətin dövründə, ən ziddiyyətli anında tutduğun yol azadlıq yolu olmalıdır. «Biz yaşamaq istəyən, heysiyyət və şərəflə yaşamaq istəyən bir millətik»-deyən Atatürk millətinə yaxından bələd idi. Onun necə yaşamaq lazım oldugunu da bilirdi.

Bunu bilmək lazımdır ki, «biz hara gedirik, bizi kim haraya sürükləyir?... qoca bir millət hədəflərə başıboş sürüklənirmi?».

Atatürk məmləkətini yeni inkişaf yoluna çıxarıb onun gələcəyindən arxayın olandan sonra bir mühüm məsələdən xüsusilə danışırdı. Bu, başqa türk xalqlarının taleyi idi. Buna böyük lider heç cür biganə qala bilməzdi. Başqa türk xalqlarını heç vaxt Türkiyədən ayırmırdı. Ordunun vəzifələrindən danışanda «Türklük Dünyasının» şan və şərəfini də qorumağı xüsusilə tapşırırdı. O yazırdı: «Bu gün Sovet Rusiyası dostumuzdur, qonşumuzdur, müttəfiqimizdir... Dövlət olaraq bu dostluğa ehtiyacımız var! Fəqət sabah nə olacağını kimsə göstərə bilməz. Osmanlı İmperatorluğu kimi, Avstriya-Macarıstan imperatorluğu kimi parçalana bilər. Bu gün əlində möhkəm tutduğu millətlər ovuclarından ayrıla bilər... Dünya yeni bir məcraya qələ bilər. Məhz o zaman Türkiyə nə edə biləcəyini bilməlidir. Bizim bu dostumuzun yönətimində dili bir, inancı bir, özü bir qardaşlarımız vardır. Onlara arxalanmağa hazır olmalıyıq».*

Atatürk "Bu gün əlində möhkəm tutduğu millətlər ovuclarından ayrıla bilər» fikirləşəndə Rusiyanın gələcək taleyini də əvvəlcədən görürdü. O deyirdi: "Gözümüzün önündə baş verən Leninin ölümü qarşısında bütün dünya Trotskinin onun yerinə keçməsini gözlərkən Stalinin iqtidara əl qoyması ilə qoca Rusi-

* İsmət Bozdağ, Atatürkün Avrasiya dövləti, Ankara,1999, səh. 152

** Yenə orada, səh. 27.



* İsmət Bozdağ, Atatürkün Avrasiya dövləti, Ankara,1999, səh. 31

yanın necə qan gölünə döndərdiyini görmüşük. Necə qurbanlardan sonra Trotski Türkiyəyə gəlmiş və Böyükadada göz altında tutulmuşdu. Öldürüləcəyindən o qədər qorxurdu ki, oturduğu köşkün bütün pəncərələrini tuyla örtdürməyə başlamışdır. İstanbulda polis müdiri Trotskinin həyatına bizim məsul olduğumuza güclə inandıra bilmişdi".*

Atatürk bir məsələni də yaddan çıxartmırdı. Həmin günə necə hazır olmaq? «hazır olmaq» yalnız o günü susub gözləmək deyildir, hazırlanmaq lazımdır... Millətlər buna necə hazırlanırlar? Mənəvi körpüləri sağlam tutaraq!... Dil bir körpüdür, inanc bir körpüdür, tarix bir körpüdür!... Bu gün biz bu toplumlardan dil baxımından, gələnək, görənək, tarix baxımından ayrılmış, çox uzağa düşmüşük. Bizim bulunduğumuz yermi doğru , onlarınkımı? Bunun hesabını aparmaqda fayda yoxdur. Onların bizə yaxınlaşmasını gözləməyin, bizim onlara yaxınlaşmamız gərəkdir».

Azərbaycanın məşhur ziyalıları Atatürkə həmişə böyük qiymət vermiş, onun türk və Azərbaycan xalqlarının birliyi, qardaşlığı haqqında fikirlərini fəxrlə qeyd etmişlər. Dövrümüzün lideri Heydər Əliyev Türkiyədən gəlmiş dövlət adamlarının qarşısında çıxış edərkən Atatürkün sözlərini fəxrlə, iftixar hissi ilə deyirdi: "Böyük Mustafa Kamal Atatürkün sözləri gəlir xatırıma: o deyirdi ki, Azərbaycan gülərsə Türkiyə də gülər, Azərbaycan ağlarsa Türkiyə də ağlar. Mən də bu gün burada Azərbaycan xalqının iradəsini təmsil edən Prezident olaraq deyirəm ki, Türkiyə sıxılarsa, incinərsə, üzülərsə Azərbaycan da sıxılacaq, incinəcək, üzüləcək, Türkiyə gülərsə Azərbaycan da güləcək!".**

---

* İsmət Bozdağ, Atatürkün Avrasiya dövləti, Ankara,1999, səh. 149-150
** İrfan Ülkü. Baxımsızlıqdan sonra Azərbaycan. İstanbul, 2001, c.262



Azərbaycanın liderləri Atatürkün böyüklüyünü yalnız iki xalqın tarixində oynadığı böyük və misilsiz xidmətləri ilə məhdudlaşdırmırdılar. Məmməd Əmin Rəsulzadə hələ 1953-cü ildə "Qurtulan Şərqin simvolu" adlı əsərində yazırdı: "XIX əsr demokratiyası tarixinin qeyd etdiyi iki tipik hadisə vardır: Böyük Fransız inqilabı ilə Amerika ihtilal müharibəsi! Fransa inqilabı müstəqil bir dövlət halında ikən bəşəri haqqını qazanmaqla hür bir cəmiyyət halını almaq istəyən bir millətin hərəkətidir; Amerika ihtilalı isə hür bir cəmiyyət halında ikən müstəqil bir dövlət həyatı ilə yaşamaq əzmini göstərən bir millətin həmləsidir".

M.Ə.Rəsulzadə Atatürkü Corc Vaşinqtonla müqayisə edənlərə haqq qazandırır. Amma onu da göstərirdi ki, Atatürk təkcə Vaşinqton deyildir. O, Türkiyənin əcnəbilərə qarşı istiqlal və hakimiyyətini müdafiə etməklə qalmadı, eyni zamanda Böyük Fransız inqilabının təmin etdiyi hüriyyəti də təsis etdi."

Buna görə M.Ə.Rəsulzadəyə üçün məsələnin mahiyyəti "XX əsrin Şərqi, XIX əsr Qərb tarixinin qeyd etdiyi Amerika ihtilali ilə Fransa inqilabını bir həmlədə yapmaq zərurətindədidir. Mustafa Kamalın böyüklüyü məhz tarixin bu zərurətini qavrayışındadır. Bu şümul dühası ilə Türk millətçiliyinin şanlı lideri, eyni zamanda qurtulan Şərqin da simvoludur!"*

Bəli, qədim və zəngin bir ölkədə "Yeni bir Türkiyə yaratmış tək kişi Mustafa Kamal Paşadır".

Bununla belə Atatürk öz yaxın adamları ilə söhbətlərində qeyd edirdi ki, Şimal qonşularınızla ehtiyatla dolanın, çünki bunu lazım bilirdi. O, 1938-ci ildə öləndə bütün türk xalqı onun

---

* Məmməd Əmin Rəsulzadə. Qurtulan Şərqin simvolu, "Azərbaycan" /Türkiyə/, 1953, N 8

arxasınca ağlayırdı və yalnız Türkiyə türkləri yox, bütün türk xalqları ağlayırdı. Mustafa Kamal Atatürk bütün türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin də atası idi. Türkiyədə yaşayan mühacir Azərbaycan şairi Kərim Yaycılı göz yaşları içərisində həmin gün yazdığı böyük bir şerin aşağıdakı parçasında deyirdi:

Deyirlər: "Öksüz qaldı 18 milyonluq Türk,
Getdi gözlərimizin önündən ah, Atatürk".

Unutma ey ağlayan Anadolulu qardaş!
Mənim də bağrım qanlı, mənim də gözlərim yaş;

Bax, mən də ağlayıram Atamın arxasından,
Qısqanıram hissimi bu ayrılıq yaşından.

Bu çırpınan qəlblərin mən də bir bənzəriyəm,
Mən ki, istiqlalına susamış Azəriyəm;

Bu yaslı günündə də düşmədimsə yadına,
Qafqaza yaraşmazmı ağlamaq övladına?

Dön üzünü Batıya, doğrul da Qafqazından!
Ağla ey Azəri Türk Atamın arxasından.

10 noyabr 1938
Ankara.



# NƏRİMAN NƏRİMANOV



Nəriman Nərimanov 1925-ci il martın 19-da qəflətən vəfat edəndə onun tabutu yzərinə qoyulan əklildə yazılmışdır: "Şərq xalqlarının inqilabi rəhbərinə və imperializm zülmü altında olanların tam azadlığı uğrunda çarpışmış mübarizə".

Nərimanovun vəfatı ilə əlaqədar ölkənin bütün dövlət idarələrində iş dayandırıldı. Dəfn günü – martın 23-ü matəm günü elan edildi. Həmin gün SSRİ və müttəfiq respublikaların hökümət binalarında, hərbi və ticarət donanmasının gəmilərində dövlət bayrağı beş dəqiqəliyə endirildi. Moskva vaxtı ilə saat 13-də Qızıl Ordunun bütün qarnizonlarında toplardan yaylım atəşi açıldı. Nərimanov ilk azərbaycanlı idi ki, Qızıl meydanda Kreml divarları yanında dəfn olunurdu. Burada dəfn olunan həm də son azərbaycanlı idi. SSRİ MİK-nin sədri M.İ.Kalinin matəm nitqində deyirdi: "Nəriman Nərimanov yoldaşın şəxsində biz öz doğma partiyamızın sıralarındakı gözəl bir yoldaşımızı və dostumuzu dəfn edirik. Onun şəxsində Qızıl meydan Şərq xalqlarından birinci qurbanı öz ağuşuna alır".

Türk və Azərbaycan xalqları kimi bu xalqların liderləri olan Atatürk və Nərimanov da bir-birinə qayğı göstərir, hörmət edir, əl tutur, eyni zamanda bir–birini ruhlandırırdı. Atatürk 1881-ci ildə, Nərimanov isə 1870-ci ildə anadan olmuşdur. Nərimanov Atatürkdən təxminən 10 yaş böyük idi, ondan da tez vəfat elədi.

Hər ikisi öz xalqı üçün dayaq idi, xilaskar idi, lider idi. Hər iki xalq tarixin törətdiyi faciə qarşısında aciz qalanda bunlar öz xalqının dadına yetişdi. 1932-ci ildə Türkiyəyə gəlmiş Amerikalı general Artur çıxışlarının birində deyirdi" "Məndən soruşasınız ki, həyatınızın ən böyük nəsibi nədir? Mən belə cavab verərdim: Mustafa Kamal Atatürk adında bir insanla tanış olmaq". Bəli belə bir böyük liderlərlə tanış olan onu heç vaxt unuda bilmirdi.

Bu dahilərin hər ikisi böyük çətinliklərə düçar olmuşdur. N.Nərimanov daha çox.

Azərbaycan ədəbiyyatında, publisistikasında, ictimai-siyasi və dövlətçilik sahəsində çox böyük işlər görmüş doktor Nəriman Nərimanovun bir bədii əsəri var – "Nadanlıq". Bu əsər onun ilk qələm təcrübəsidir. Borçalının Qızılhacılı kəndində müəllimlik edərkən gördüklərini və eşitdiklərini ümumiləşdirib bütün Azərbaycan üçün xarakterik bir əsər yazmışdır. Əsər ilk dəfə 1895-ci il yanvarın 15-də Bakıda tamaşaya qoyulmuşdu. "Kaspi" qəzeti onu "bura müsəlmanlarının arasında görünməmiş bir hadisə" adlandırıb yazırdı: "Nadanlıq" dramı o qədər tamaşaçı cəlb etmişdir ki, teatra zorla yerləşirdi, hətta əlavə stullar da qoyulmuşdu".

Çox qəribə şeydir? Nadanlığa, bihörmətliyə, bimərifətliyə bu qədər tamaşaçı toplanmışdır. O zaman tamaşaçılar Nəriman Nərimanovun dediyi kimi, "Üç cüt, bir tək" oxumuş adamlar, gözü açıq, irəlini görən, millətinə xeyir vermək istəyən, ürəyindəkini dilinə gətirməkdən qorxmayan ziyalılar idi. Bəs bizim dövrümüzdə necə? İndi daha pis! Bir var qanmadığından qanacaqsızlıq edəsən, nadanlıqdan nadan hərəkətə yol verəsən, bir də var qana-qana, bilə-bilə bunu edəsən. Bu daha dözülməzdir.

"Nadanlıq"dan sonra Nəriman Nərimanov bir çox əsərlər



yazmışdı, 1898-ci ildə yazdığı və Azərbaycan ədəbiyyatında ilk tarixi faciə olan "Nadir şah" dramının uzun müddət tamaşasına icazə verilməmişdir. Əsərdə iki padşahın camaat tərəfindən taxtdan salınması və "əsli" olmayan bir adamın hakimiyyət başına keçməsi çar çinovniklərini bərk qorxuya salmışdır, "zərərlidir, oynanıla bilməz" deyə həmişə rədd edilmişdir. Bu əsəri Krımda tamaşaya qoymağa cəhd etmiş, alınmamışdır. Əksinə çar çinovnikləri onu yandırmağı məsləhət görmüşlər.

Əsərin tamaşasına ilk dəfə 1906-cı ildə icazə verildi və təcili işə başlandı. Amma tamaşa məhərrəmliyə qədər göstərilə bilmədi. Onda verilmiş icazədən necə olursa-olsun istifadə etmək məqsədi ilə müəllif onu təcili rus dilinə çevirmiş, rus dilində həmin ilin fevral ayının 8-də tamaşaya qoydurdu və çox böyük müvəffəqiyyət qazandı.

Bunlar hələ XIX əsrdə ilk təcrübələrindən başlayaraq ömrünün axırlarına qədər xalq üçün yaşayan bir insanın gördüyü xeyirli işlər idi. O, 1925-ci ildə 6 yaşlı oğluna yazırdı: "Əziz oğlum! Əgər mənim həyatımı araşdırsan, sən əmin olacaqsan ki, mən 1925-ci ilədək başqaları üçün yaşamışam". Bəs sonra? Sonra belə də davam edəcək.

Amma belə olmadı. Bu böyük insan, bütün fəaliyyət sahələrində əvəzsiz şəxsiyyət bu sözlərini deyəndən iki ay sonra Moskvada vəfat etdi.

Nəriman Nərimanov sözünü həmişə açıq demişdi, fikirlərindəkiləri dilinə gətirməkdən qorxan ziyalılardan olmamışdı. Tək bircə dəfə rəmzlə danışmışdı. Onun "Əmi" adlı son dərəcə gözəl bir hekayəsi var. Bu hekayə bəzən də "Bir kəndin sərgüzəşti" adlanır. Bu 1915-ci ildə M.Ə.Rəsulzadənin "Açıq söz" qəzetində dərc olunmuşdu.

Burada iki məhəllənin yaşayışından bəhs olunur. Bu

məhəllələrdən biri İnəmrədir, o birisi Namləsumdur. İnəmrə camaatı diribaş, gözü açıq adamlardır, bir növ "yırtıcı bir camaatdır". Bir məsələ olanda "İnəmrə məhəlləsinin üzdə olan adamları tamamilə gəlir, danışır, çığır-bağır salır", məsələni "öz xeyirlərinə həll etməyə" çalışırlar. "Onların arasında bəyzadəzad yoxdur, fəqət dünyadan xəbərdardırlar".

"Mən doğrusu Namləsum adamlarına təəccüb edirəm, bunlar qoyun kimi şeydirlər". Onların işini hamının hörmət elədiyi Əmi görürdü. "Starşina ilə, pristavla çənələşmək asan iş deyil", onlarla Əmi danışırdı. "Namləsüm məhəlləsinin camaatına da belə bir şey lazım idi".

Bir vaxt kənddə böyük nizamsızlıq oldu. "Adam öldürmək, oğurluq, quldurluq artdı. Daşdəmir adlı birini kəndxuda qoydular. İnəmrə məhəlləsinin adamları onu tez ələ aldılar, kənddəki bulağın suyunu əksərən onlar işlədirdi. Namləsüm camaatı Əmiyə şikayət etdilər. Daşdəmir də Əmiyə dedi ki, "kəndxudanın işinə qarışmayın". Beləliklə, Namləsüm camaatı tapdaq altında qaldı. Daşdəmiri pristav apardılar. İnəmrə camaatı "şadlıq etdilər, atıldılar, düşdülər". Əmi isə öz camaatını təbrik etdi və dedi ki, "bu zalım balası başımıza nə oyunlar gətirdi... heç kim onu ötürməyə çıxmasın".

Səhər İnəmrə camaatı hamılıqla kəndin kənarına çıxıb Daşdəmiri ötürməyə hazırlıq görürdü. Namləsüm camaatından bircə Əmi gəlmişdi. O, Daşdəmirə yaxşı yol arzuladı və dedi: "Allah sizi bizə çox görməsin. Sizi özümüzə ata bilirdik".

Budur Azərbaycan xalqının özününküləri və başqaları! Əgər diqqət versəniz məhəllələrin adları tərsinə yazılmışdı. Bu adları biz düzünə oxuyanda İnəmrə olacaq erməni, Namləsüm – müsəlman. Nərimanovu qonşularımızın namərdliyi, qəddarlığı, onlara aldanıb öz camaatına divan tutanların nakişiliyi yandırırdı.



1904-cü ilin əvvəlində Daşnakların Vyanada 3-cü növbədənkənar qurultayı çağırıldı (I qurultay 1892-ci ildə Cenevrədə olmuşdu). Qurultay öz proqramına qeyri-insani və mənfur bir şey olan terror bölməsini də artırdı. Orada deyilirdi: "Ermənilər qismən qıvrılıb gizlənərək ətrafındakı ovu güdən, onu çalmaq məqamını gözləyən ilana bənzəyirlər".

Bu sözlər ermənilərin xəbis niyyətlərini, ilan təbiətini çox gözəl xarakterizə edir. Bunu Nəriman Nərimanov da bilirdi. Çünki o, 1906-cı ildə RSDFP Proqramını Azərbaycan dilinə tərcümə etmişdir. O, bu siyasi məsələlərin içərisində idi.

Nəriman Nərimanov 1896-1899-cu illərdə yazdığı "Bahadur və Sona" əsərində dini ayrıseçkiliyə atəş açır, sevən qəlbləri ayıran uçurum dərələri yox etməyə çalışırdı. Heç kəs Nərimanovu erməni xalqının düşməni adlandıra bilməz. Çünki Nəriman Nərimanov "möhkəm əqidəli beynəlmiləlçi və alovlu vətənpərvər idi".

Mən Nərimanovun beynəlmiləlçiliyindən, vətənpərvərliyindən danışmayacağam. Bura onu da əlavə etmək olar ki, Nərimanov sözün əsil mənasında humanist adam idi. İnsan öldürməyin tam əleyhinə idi. Onu sözlə, hərəkətlə, məntiqlə düz yola, haqqa, ədalətə yönəltməyin tərəfdarı idi. Azərbaycan sovetləşəndən sonra xalqın başına müsibətlər açan, soyub talayan, kimi öldürüb, kimi saxlamaq lazım gəldiyini "həll edən" cəllad Pankratov idi. Nəriman Nərimanov Bakıya Azərbaycan Cümhuriyyəti yıxılandan, daha dəqiqi, akt tərtib edib "hakimiyyəti müsəlman kommunistlərinə" veriləndən sonra gəlmişdi. Onu Biləcəridə qarşılayanlar Azərbaycanda baş verən hadisələrdən danışmış və demişdir: "Azərbaycanı başdan-başa qarət edirlər, sağa-sola insanları güllələyirlər". Onları sakitləşdirən

Nərimanov yazır: "Mən təcili İnqilab Komitəsinin Rəyasət heyətinin iclasını təyin etdim və o zaman faktiki olaraq hər şeyi idarə edən yol. Pankratovu da dəvət etdim".

Həmin iclasda belə bir nəticəyə gəlinmişdir: "İnqilab Komitəsinin sanksiyası olmadan heç kim güllələnməsin".

O zaman belə bir humanist, insani təklifin azərbaycanlılardan Mirzə Davud Hüseynov və Əliheydər Qarayev əleyhinə çıxırlar və "Hər şeyi əvvəlki kimi davam" etdirməyə çalışırlar. Amma Nərimanov yenə öz prinsipini yeridirdi. Məsələn, Gəncə üsyanı zamanı general Şıxlinskini və general Mehmandarovu qoruyub saxlamış, onlara qarşı son dərəcə prinsipiallıq göstərərək xüsusi məktubla Moskvaya, "gələcəkdə lazım ola bilər" adı ilə Leninin sərəncamına göndərmişdir.

Nəriman Nərimanov mayın 17-də Bakıya gələn kimi heç kəsə ölüm hökmü çıxartmadı. Ona düşmən olanları da, olmayanları da xalqının nümayəndələri kimi düz yola çəkməyə çalışdı. Hətta M.Ə.Rəsulzadə Qaraməryəmdə həbs olunub Bakıya gətirilərkən ona xüsusi diqqət yetirmişdir: M.Ə.Rəsulzadənin bəxti onda kəsdi ki, o, Nərimanov Bakıya gələnəcən bir neçə ay Lahıcda gizlənib qalmışdı. Yoxsa Pankratov onun da axırına çıxacaqdı. Bakıda məlum "qarət həftəsi" (qrabnedelya) başlamış, camaata divan tutulmuşdu.

Bunların hamısı Nəriman Nərimanov gələnə qədər olmuşdur. Hətta M.Ə.Rəsulzadənin tutulmağından narahat olan xalqı sakitləşdirmək üçün Nərimanov 1920-ci ilin oktyabrında "Kommunist" qəzetində elan verdirmişdir ki, M.Ə.Rəsulzadə haqqında heç bir təhlükə yoxdur.

Nərimanov M.Ə.Rəsulzadəni şəxsən Stalinlə birlikdə Moskvaya yola saldı. Ü.Hacıbəyovu öldürüləcək adamların siyahısından çıxartdı. Firudin bəy Köçərlinin Gəncədə öldürül-



məsinə çatmadı və bu onu həmişə yandırıb yaxırdı və s. Bunların sayını çox artırmaq olar.

Lakin belə bir faktı qeyd etmək olar. Nərimanov Bakıya gələndən sonra hərbi tribunalın nümayəndəsi Nərimanovun yanına gəlib ona bir siyahı verir. Deyir ki, "doktor, bunların hamısını güllələmək lazımdır. Buna İnqilab komitəsinin sədri də qol çəkməlidir". Nərimanov təəccüblə ona baxır və soruşur:

- Bunlar nə ediblər ki?

Hərbi tribunalın nümayəndəsi bircə onu deyir ki,

- Bunlar Sovet hakimiyyətinin əleyhinə çıxıblar.

Nərimanov deyir ki, qoy qalsın, baxaram. Siyahıda 99 adam vardı. Onların içərisində Əliağa Şıxlinski, Səmədbəy Mehmandarov, Üzeyir Hacıbəyov və s. adamlar da vardı. Bunları görən kimi, Nərimanov öz köməkçisinə deyir:

- Mənim qərarımı kalon rəisinə çatdır ki, bu 99 nəfərin hamısını evlərinə buraxsın, onlardan Əliağa Şıxlinskini və Səmədbəy Mehmandarovu mənim yanıma gətir.

2510

Generallar gələn kimi Nərimanov dərhal soruşur:

- Ay Əliağa, sizi nə üstündə həbs eləyiblər?

General həyəcanlı və sərt cavab verir:

- Nəriman, başını ağrıtma, bizi güllələməyə gətiriblər, güllələyin.

Ə.Şıxlinski sözünü qurtarmamış Mehmandarov dillənir:

- Məni ona görə həbs elədilər ki, Müsavat dövlətinin hərbi naziri olmuşam.

- Nə olsun, - deyə Nərimanov dillənir, - indi də olarsan Sovet hakimiyyətinin hərbi naziri... Əliağa, görünür, sən öz qiymətini bilmirsən, axı sən Rus artileriyasının allahı adlanırdın. Biz bir şeyi bilməliyik ki, bir generalı ərsəyə gətirmək üçün azı 50 il vaxt lazımdır. Biz öz generallarımızı nə üçün güllələməliyik?

AZƏRBAYCAN RESPUBLİKASI PREZ... İŞLƏR İDARƏSİNİN
KİTABXANASI

N.Nərimanov elə həmin gün, yəni 1920-ci il avqustun 1-də Moskvaya V.İ.Leninə generallar haqqında son dərəcə qayğılı şəkildə aşağıdakı məktubu yazır:

"Əzizim Vladimir İliç!

Gəncə üsyanı zamanı köhnə Azərbaycan ordusunun bütün zabitləri həbsə alınmışdı. Bu məktubu Sizə təqdim edən məşhur generallar – Mehmandarov və Şıxlinski də onların içərisində idi. Diqqətli yoxlama nəticəsində məlum oldu ki, bu generalların üsyanla əlaqəsi olmamışdır. Lakin mövqeyimiz sabitləşənə qədər və ümumi işimizə kömək məqsədi ilə biz hər halda bu qərara gəldik ki, onları ştabda işləmək üçün Sizin sərəncamınıza göndərək, çünki onlar hərbi mütəxəssizlər olmaq etibarilə əvəzsizdirdər. Onlardan biri, Şıxlinski Nikolay ordusunda "artilleriyanın allahı" sayılırdı. Polşa cəbhəsi qurtarana qədər qoy onlar Moskvada işləsinlər, sonra Sizdən xahiş edəcəyəm ki, bizim əsgəri hissələrimizi təşkil etmək üçün onları buraya göndərəsiniz. Bu müddətdə onların qayğısına qalmaq lazımdır..."

Bəli, bunların işi belə düzəldi, bəs Üzeyir Hacıbəyova nə oldu? Nərimanov ona dedi ki, sən mütləq İrana getməlisən, bir az orada qal, sonra qayıt. Həqiqətən Ü.Hacıbəyov bir müddət İrana getmiş, Ənzəlidə qalmış, sonra geri qayıtmışdır. Bu barədə Üzeyir Hacıbəyov 24 avqust 1949-cu ildə M.C.Bağırova yazdığı ərizədə göstərirdi ki, "Xalq düşmənləri, burjua millətçiləri, faşizm agentləri 1924-cü ildən məni və əsərlərimi təqib edir, məni xalqın gözündən salmağa çalışırdılar. Lakin mənim taleyim elə gətirmişdir ki, məni doğru, düzgün, həssas adamlar, insanları əla başa düşənlər qorudular." Belə adam Nərimanov idi.

Hələ 1937-ci ildə Filarmoniyanın həmkarlar təşkilatının sədri Akopyan yazırdı ki, "Üzeyir Hacıbəyovun şəxsiyyəti mənim üçün qaranlıqdır. Bolşeviklər Bakıya gələn kimi o İrana



qaçdı və bir müddətdən sonra geri qayıtdı. Onun Müsavat parlamentinin üzvü olan, sonra Parisə qaçan və orada yaşayan qardaşına yeddi il pul göndərmişdir".*

Bunlar hamısı Nərimanovun vaxtından başlayaraq böyük sənətkarı izləyir, təqib edir, məhv etmək istəyirdilər. Amma alınmadı.

Azərbaycan tarixində elə bir fakt tapa bilmərik ki, Nərimanova kir gətirsin, o, bircə nəfər Azərbaycan ziyalısını məhv etmiş olsun və s. O, gələcək üçün yaşayırdı. Özü yazırdı: "Bəlkə də biz öləcəyik, lakin ona görə öləcəyik ki, yenidən həyata qayıdaq". O, öldü, amma yenidən qayıtdı. O, öləndən sonra ta 1956-cı ilə qədər unuduldu, adı çəkilmədi, amma yenidən qayıtdı həyata.



*N.Nərimanov oğlu Nəcəflə birlikdə. Fevral 1925-ci il.*

---

* Azərbaycan Respublikasının siyasi partiyalar və ictimai hərəkatlar arxivi, fond 1, siyahı 122, iş 162.

# “KAŞ MƏN BU CƏZİRƏYƏ GETMƏYƏYDİM”

Bakının əldən-ayaqdan uzaq, ağacsız bir adası var. Nargin adlanan bu ada dənizin ortasında yerləşir. Həmin adada çarizm həbsxana tikdirmişdir. Ən qorxulu adamları ora sürgün edir, bir növ ölümə göndərirdi. 1910-cu ildə milyonçu H.Z.Tağıyev şəhərin lap kənarında bir dəyirman tikdirmişdir. Şəhər camaatı Tağıyevdən xahiş edirlər ki, hökumətlə danışsın və bu dəyirmanı həbsxana eləsin. Camaatın həbs olunan adamları Narginə göndərilir, onların yanına görüşə getmək olmur.

Tağıyev belə də eləyir, hökumətlə danışır, həmin tikilini həbsxanaya çevirir, camaatın da canın qurtarır. Nargin adası boşaldılır, baxımsız bir sahəyə çevrilir.

Amma Birinci dünya müharibəsi zamanı bura yenidən diqqəti cəlb edir və müharibədə əsir düşmüş on minlərlə adamları burada yerləşdirirlər. Onların içərisində ən çox türk əsirləri idi. 1917-ci ilin axırlarında cənub sərhədlərindən dəstə-dəstə türkləri bu insan yaşamayan yerlərə doldurub işgəncələr verirdilər. Tariximizə və ədəbiyyatımıza yaxşı bələd olan xalq yazıçısı Qılman İlkin deyir ki, “burada saxlanan əsirlərlə adi insan kimi davranmırdılar. Torpaq döşəməli bu barakda o qədər əsir yerləşdirilmişdi ki, nəinki yatmağa, heç əyləşməyə də yer tapılmırdı. Qışın sərt soyuğunda taxtaları aralı olan baraklarda əsirlər min bir əzaba qatlaşaraq yorğansız-döşəksiz bir-birinə sığınıb sübhədək titrəyirdilər. Göndərilən əsirlərin ardı-arası kəsilmirdi. İlin axırında burada əsirlərin sayı 2900 nəfərə çatmışdı.”*

* Qılman İlkin. Nəriman Nərimanov və türk əsirləri."Xalq qəzeti", 24 avqust 2003.



Əsirlərin arasında qadınlar, uşaqlar da az deyildi. Onlara qeyri-insani münasibət göstərilməsi barədə hökumətə verilən ərizələrin də xeyri olmamışdı. Həmin əsirlərin bu vəziyyətinə səsini ucaldan N.Nərimanov oldu. N.Nərimanov o zaman “Hümmət” qəzetinin redaktoru idi. Onu hələ o zaman türk qardaşlarının vəziyyəti bir yazıçı, bir həkim, bir insan kimi Nargin adasına getməyə məcbur elədi. Türk qardaşlarına biganə qalmadı. N.Nərimanov “Hümmət” qəzetinin 1917-ci il 20 noyabr tarixli nömrəsində “Göz yaşları tökən cəzirə” adlı məqaləsində yazırdı: ” Kaş mən bu cəzirəyə getməyəydim! Kaş bir dəri, bir sümük bədənləri, işıqsız gözləri, ah-zar edən insanları görməyəydim! Kaş “əfəndim su, əfəndim yemək, əfəndim paltar” sözlərini eşitməyəydim! Kaş dodaqları soyuqdan titrəyən, üzləri ayazımış atasız-anasız uşaqları dindirməyəydim! Kaş başları kərpic üstündə can verən igidlərə rast gəlməyəydim! Min iki yüz insan balası hazır ölüm növbəsində durmuşdur. Altmışı da növbəyə hazırlaşır. Tifmi, vəbamı və ya bir siraətedici mərəzmi bunları cəzirəyə qurban edəcək? Yox, yox...”

İnsanları bu cür ölüm növbəsində durmağına biganə baxmaq olmur, ona baxan hər bir insan qeyri-iradi göz yaşı tökürdü.

N.Nərimanov daha sonra yazırdı:”Aclıq, susuzluq, soyuq. Mən onların halına tab gətirə bilməyib ixtiyarsız ağladım. Ağlamamaq mümkünmü? Vaxtilə ata və ananın göz işığı, sonra uşaqlar pəsdarı, sonra isə Vətən qəhrəmanı bir insan indi ilanlar məskəni olan susuz bir cəzirədə can verərkən, quru, çatlamış dilini sıxıb deyir: “əfəndim su, əfəndim çörək...”

Bundan sonra Nərimanov mətbuat səhifələrində kəskin çıxışlar edir, hökumət məmurlarına qəzəbli məktubları da nəticəsiz qalmır, hökumət tərəfindən komissiya yaradılır, Nəri-

manov onun rəhbəri təyin edilir və işi daha dərindən yoxlamaq üçün ikinci dəfə o həmin komissiyanı "ölüm cəzirəsinə" aparır.

O heç cür türk qardaşlarının faciəli həyatına biganə qala bilmir. Komissiya adından yeni bir teleqram hazırlayıb öz təklifi ilə birlikdə hökumətə göndərir.Həmin teleqrama N.Nərimanovun bu sözləri də əlavə edilir: "Nargin məzardır. Min adam hazır bir məzarın kənarında növbədə durub. 7 min də bu qəbrə girməyə hazırlaşır".

Komissiya öz təkliflərində yazırdı: 1. Cəzirəyə daha əsir göndərilməməli. 2. Qocaları və ümumiyyətlə müharibədə iştirak etməmiş adamları və uşaqları cəzirədən çıxarıb xeyriyyə cəmiyyətinin sərəncamına göndərməli. 3. Xəstələri tezliklə cəzirədən şəhərə köçürməli. 4. Əsirlərin yemək- içməkləri və üst-başları barədə təcili tədbir görülməli."

O zaman bu məsələ dövri mətbuatda böyük hay-küyə səbəb oldu. Mustafa bəy Əlibəyov "Hümmət"ə yazırdı: "Hazırda cəzirədə olan 2900 nəfər türk əsirinin 5 nəfəri qadındır. Bunlar təxminən 14,30,35,60,70 yaşlarındadır. Adı var ki, adada uşaqlar üçün məktəb açılmışdır, ancaq məktəbə nə dərslik verilir, nə də yazı ləvazimatı. Ət yeməməzlikdən uşaqların gözləri zəifləmişdir".

Nərimanov bunları uzun müddət unuda bilmirdi. O xəstələnib Həştərxana gedənəcən türk balalarının taleyi ilə məşğul olurdu. O, Həştərxanda, sonra Moskvada V.İ.Leninlə görüşlərində bu cür qeyri-insani münasibətlərdən də danışmışdır. 1920-ci ildə Azərbaycan İnqilab Komitəsinin sədri, sonra Baş Nazir olanda da unutmadı, əlinə imkan düşən kimi türk qardaşlarına, onların lideri Mustafa Kamal Paşaya dostluq, qardaşlıq əli uzatdı.

Dövrümüzün məşhur türk şairi, Azərbaycan xalqının dostu,



qardaşı, Heydər Əliyev haqqında "Baxımsızlıqdan sonra Azərbaycan", "Qızıl ulduzdan hilala doğru (Heydər Əliyevin fırtınalı həyatı)" kimi gözəl kitablar yazmış İrfan Ülkü N.Nərimanov haqqında qələmə aldığı çox maraqla bir şerində deyir:

***78 il sonra Nərimanovun***
***Bakı ilə telefon danışığı***

Alo, Bakı, Bakı, çatırmı səsim,
İçəri şəhərdən ta Mərdəkana,
Hər evə, binaya, hər bir nəfərə,
Bayıldan başlamış ta Xırdalana?

Alo, Bakı, burda qasırğa, zülmət,
Üstümə tökülür qar yığın-yığın.
Fəqət uzaqlarda bir ulduz yanır,
Mənə yol göstərir sənin işığın.

Uğradım hər zaman xəyanətlərə
Mən sənə, Vətən, arxa çıxandan,
Böyük Füzulini saran alovlar
Bil ki, zəif idi məni yaxandan.

Mən öldüm, yenidən dirilmək üçün
Lazımsa, ölümü boğa bilərəm,
Kremlin önündə soyuq qəbrimdən
Simurq tək yenidən doğa bilərəm.

Şərqin üfüqündə təzə günəş var,
Mən də türkün azad ölkəsindəyəm!

Siz məni eşidib görməsəniz də,
Heydər Əliyevin kölgəsindəyəm!

Ayrılıq oduna illərdi yandım,
Fələk çox sınadı mənim səbrimi,
Ruhum sizinlədir, cismim də olsun,
Qaytarın Vətənə qərib qəbrimi...

And olsun, özüydü, Nəriman özü!
O özü danışdı başqası deyil.
Dedi ki, bir gedək sabaha doğru...
Keçmişdi aradan 78 il....

*İrfan Ülkü*
İstanbul
20 iyul 2002-ci il



*Qırmızı meydanda Nəriman Nərimanovun məzarı. Gülsüm xanım və oğlu Nəcəf.*



## AZƏRBAYCAN XALQININ DƏRDİ BİZİM DƏRDİMİZ, SEVİNCİ BİZİM SEVİNCİMİZDİR

Atatürk türk toplumları içərisində Azərbaycana xüsusi qiymət verir və bizim xalqımıza çox böyük ümid bəsləyirdi. Bu xalqın dərdini öz dərdi, sevincini öz sevinci bilərək deyirdi: «Azəri türklərinin dərdləri bizim dərdlərimiz və sevincləri öz sevinclərimiz olduğu üçün onların muradlarına nail olmaları, hür və müstəqil yaşamalari bizi həddindən çox sevindirir».

Bu sözlər 1921-ci ildə deyilmişdir. Atatürk Azərbaycan xalqına həmişə «hür və müstəqil» yaşamasını, bir də heç vaxt zülm altına düşməməsini arzu edirdi. «Anadolu xalqı Azəri qardaşlarının qəlbi öz qəlbi kimi çarpdığını» bilir və bunları daha da yaxınlaşdırmağın vacibliyini göstərirdi.

Bu zaman Azərbaycan sovetləşmişdi. Özü də Nərimanovun sayəsində sərbəst, müstəqil respublika idi. Türkiyə və Azərbaycan qardaş ölkələri kimi bir-birinə əl tutmalı, kömək etməli idi. Bunu Nərimanov da bilir və Atatürkün bacarığını, qeyrətini çox yüksək qiymətləndirirdi. Mustafa Kamal o zaman maddi yardım üçün Leninə müraciət edir, əsgəri xərclər üçün beş milyon qızıl pul istəyirdi. O, Leninə göndərdiyi məktubların birini belə başlayırdı: «Sayın Başkan, rus bolşevikləri ilə bütün çalışmalarımız və əsgəri hərəkatımızı birləşdirmək zorunluğunu qəbul etməkdəyiz. Bolşeviklər imperialist hökümətlərə qarşı savaşaraq və bütün «məzlum ulusları» imperialistlərin hegemonluğundan qurtarmağı məqsəd götürdüklərinə inanırıq. Ayrıca ölkəmizi işgal edən imperialist qüvvələri ölkədən qovmaq, imperializmə

qarşı girişilən genel savaşı sürdürə bilmək amacı ilə yurd içindəki gücümüzü artırmaq üçün Sovetlər Birliyinin bizə ilk öncə beş milyon qızıl rublə verməsini istəməkdəyiz». Bu, Mustafa Kamalın Leninə birinci məktubu deyildi. Lenin də onu yüksək qiymətləndirir və yazırdı: ***«Mustafa Kamal sosialist deyildir. Lakin görünür ki, gözəl bir təşkilatçi, yüksək anlayışlı, qabağı düşünən, gözəl düşüncəli və ağıllı bir öndərdir. O, soyğunçuluğa qarşı bir qurtuluş savaşı aparır. Mən onun imperialistlərin qürurunu qıracağına .... inanıram.»***

Leninin Mustafa Kamal haqqında bu cür formalaşmasında Nərimanovun da xidməti ola bilərdi. Nərimanov əvvəllər də, Həştərxanda olanda da yeni türklərlə əlaqə saxlayır və tədbirlərində iştirak edirdi. Onlarin işinə, mübarizəsinə yaxından bələd idi. Mustafa Kamal hələ Nərimanov Bakıya gəlməmiş 1920-ci il may ayının 3-də Şərq cəbhəsinin komutanı Kazım Qarambəkir paşaya yazırdı: «Dövlətdə bir qəpik yoxdur. Hələlik pul əldə etmək üçün daxildə elə bir mənbə də yoxdur. Başqa mənbələrdən pul əldə olunana qədər Azərbaycan hökümətindən maksimum miqdarda borc pul almağı təmin etməyinizi rica edirəm».

Nərimanov mayın 17-də Bakıya çatdı. Azərbaycanda da vəziyyət gərgin idi. Pankratov kimi bir cəllad Azərbaycanı onun oğullarının qanı ilə suvarırdı. Nərimanov gələn kimi İnqilab Komitəsinin rəyasət heyətinin iclasını çağırdı və «bizim sanksiyamız olmasa bir nəfər də güllələnməsin» qərarını çıxartdı.

Doğan Avçıoğlunun çoxcildlik «Milli qurtuluş tarixi» əsərinin 2-ci cildində yazır ki, «Rusiyada türk-müsəlman birliklərinin, Qızıl Ordunun zəfərdən-zəfərə çatmaları haqqında xəbərlər Ankaraya gəlməkdədir. Bolşevik Azərbaycanın Cumhurbaşqanı Nəriman Nərimanov avqustun 19-da Böyük



Millət Məclisində oxunan məktubunda «başqa qurtuluş yolu yoxdur» deyə davam edir: «Müsəlman kommunistləri sizin məqsədinizə çatmaq üçün var güclərini əsirgəməyəcəklər. Əks halda nə sizin üçün, nə də bütün Şərq üçün qurtuluş yolu yoxdur» ( II cild, səh. 430).

Bundan sonra Atatürklə Nərimanov arasında son dərəcə sıx mənəvi yaxınlıq, ideya və məslək birliyi yarandı. Nərimanov Türkiyədəki hadisələri çox diqqətlə izləyir və onların müvəffəqiyyətinə sevinirdi.

N.Nərimanov diplomatik yolla, iqtisadi vasitələrlə Türkiyəyə əlindən gələn köməyi edirdi. O zaman ingilislər yüzlərlə türk ziyalısını guya erməni qırımında iştirak etdiklərinə görə həbs edib Malta adasına sürgünə göndərmişdir. Onlarin içərisində böyük türk filosofu Ziya Göyalp, Azərbaycan ədəbiyyatında misilsiz xidmətləri olan Azərbaycan Demokratik Cümhuriyyətinin deputatı, Nərimanovun dostu Əhməd Ağaoğlu kimi azərbaycanlılar da var idi. Atatürk kimi Nərimanov da onların, bu günahsız insanların azad olmasına çalışırdı. Həttа o, ingilis səfirliyi ilə danışıb Bakıda olan bütün əsir ingilisləri Malta sürgünündə olanlarla dəyişməyi təklif etdi. Bu məsələ Malta sürgünündə olanları çox sevindirmişdir. Əhməd Ağaoğlu Nərimanova göndərdiyi məktublarının birində deyirdi: «Bakıda bulunan ingilis əsirləri hadisələrindən və bizi xilas etməyə çalışdığınızdan bizi unutmadığınız məlumumuz idi. Görünüyor ki, siyasi vəziyyətdən dolayı bunu icra etmək sizə mümkün olmamışdır. Bununla bərabər istər mən, istər mənim arkadaşlarim təşəbbüslərinizə qarşı sizə minnətdardılar».

N.Nərimanov 1921-ci ilin aprel ayında Türkiyənin Böyük Millət Məclisinin sədri Mustafa Kamal Paşaya ünvanladıgı məktubunda böyük sevinc hissi ilə yazırdı: «Azərbaycan hökuməti inqilabi ruhlu türk xalqının onun sərbəstliyini məhv

etmək istəyən Antanta dövlətlərinə qarşı müqəddəs müharibəyə qalxdığı həmin günlərin sevincli anlarını təbrik edir və sizin sevincinizə şərik olduğunu bildirir. Azərbaycanın azad olmuş fəhlə və kəndliləri inqilabı türk dövlətlərinə özlərinin ən səmimi təbriklərini göndərir. Türk xalqı qəhrəmanlıq mübarizəsinin ikinci ilində onun sərbəstliyini məhv etmək istəyən Antanta dövlətləri üzərində böyük qələbələr qazanmışdır. Türk xalqının bu qələbəsi münasibətilə sevincini ifadə edərək Azərbaycan dövləti əmin olduğunu bildirir ki, bizimlə bir cərgədə qardaşlıq silahı ilə silahlanmış qəhrəman türk ordusu qələbə bayrağını özünün tarixi mərkəzi olan İstanbulda qaldıracağı gün uzaqda deyildir.

Yaşasın inqilabçı Türkiyə!

Yaşasın Sovet federasiyası ilə Türkiyənin dostluğu!

Yaşasın Üçüncü İnternasionalın bayrağı altında əzilənlərin azad olmaq uğrunda dünya müharibəsi!

N.Nərimanov

Azərbaycan İnqilab Komitəsinin sədri!

Rusiyanın Türkiyədəki səfiri S.İ.Aralov "Sovet diplomatının xatirələri" adlı əsərində Sovet Rusiyasının Türkiyəyə etdiyi yardımı burada yüksək qiymətləndirildiyini yazır. O, göstərir ki, Atatürk özü də bu yardımdan çox razılıq edir, tez-tez xatırladırdı və onun razılığını Leninə çatdırmağı xahiş edirdi. S.İ.Aralov yazır ki, "Bir gün Mustafa Kamalın katibi mənə zəng edib dedi ki, "Paşa bu gün çox çalışdı, sizi ziyarət etmək, bir qədər əylənmək istəyir. Yanında muzıkantlar da olacaq. Bir az nəşələnmək, dans etmək üçün qadınlı-kişili elçiliyin məmurlarını toplamağınızı rica edir".*

---

* S.İ.Aralov. Sovet diplomatının xatirələri, Moskva, 1960, səh.100.



Həmin axşam həqiqətən də Mustafa Kamal Paşa gəlir. Özü də tək deyildi. Yavərlərini, yaxın adamlarını da gətirmişdir. "Onunla birlikdə elçiliyin davamlı müsafirləri, Milli Müdafiə naziri Kazım Paşa da vardı. Kamal Paşa vaxtını masa başında dostlarla həmsöhbətdə keçirməyi çox sevərdi. Hər zaman Narzan, ya da Qafqazın başqa mədən sularını istərdi. Şübhəsiz ki, masada şərab da vardı."

Məclis çox şən keçir. Atatürk yaxşı şənlənir. Özü də klassik şairlərin şerlərini oxuyur, musiqiyə qulaq asır. Musiqi qurtaran kimi "Mustafa Kamal məni və Əbilovu əllərimizdən tutaraq bizimlə bəzi məsələləri danışmaq istədiyini bildirdi.

- Əziz dostlar, yoldaşlar – Mustafa Kamal tez-tez məni və Əbilovu "yoldaş" deyə çağırardı, cəbhədəki vəziyyət çox gərgindir. Yunanlar Əskişəhərin ətrafında altı minlik bir qüvvə toplamışlar. Önümüzdəki həftə içində onlardan bir hücum gözləyirik... Rusiyanın da çətin vəziyyətdə olduğunu bilirəm, o da zəngin deyil, amma nə olursa bizi qurtarın, top, tüfəng, mərmi və para yardımından ötürü hökumətinizə və Leninə təşəkkür edirəm".*

Atatürk Azərbaycanın Türkiyədəki səfiri İbrahim Əbilovun xətrini çox istərdi. Hər dəfə onu da, Rusiyanın səfirini də birgə dəvət edər, söhbət aparardı.

Bu dəfə də Aralovu və Əbilovu cəbhəyə getməyi şəxsən Mustafa Kamal Atatürk özü çağırmışlar. Hər iki səfir bu görüşə də həmişə olduğu kimi yaxşı hazırlaşırlar. Səfirliyin qadınları xüsusi ilə fəal idilər. Onlar əsgərlər üçün iynə, iplik, düymə, tütün, şəkər kimi şeyləri özləri tikdikləri kiçik torbalara doldurub üzərinə bu sözləri yazmışdılar: "Sovet Rusiyasının

---

* S.İ.Aralov. Sovet diplomatının xatirələri, Moskva, 1960, səh.101.

Qızıl ordusundan türk ərlərinə".* Hədiyyələr çox böyük əhəmiyyətə malik olmuşdur.

Bundan sonra Nərimanovla Mustafa Kamal Paşa arasında dostluq telləri daha da genişləndi və iki xalqın arasında qırılmaz tellərə çevrildi.

1921-ci ilin mart ayında Şərq cəbhəsinin komandiri Kazım Qara Bəkir Paşanın Böyük Millət Məclisinin rəisi Mustafa Kamal Paşaya Şuşa qalasından göndərdiyi bir teleqramı rəis Məclisdə oxuyur. Həmin teleqram Nərimanovdan idi. O, yazırdı: «Cənubi Qafqaz komissarı, Azərbaycan müstəqil hərbiyyə məktəbi tələbələri, iki bölüklü süvari əsgərləri və Şuşa mühafizə taboru əsgərləri və topçuları, Nihançı türk alayı əsgərləri türk millətinin böyük Novruz bayramını təbrik edir və ümid edirik ki, Azərbaycan İnqilab ordusu ilə bərabər Qərb imperializmi təzyiqində bulunan Şərq millətlərini yaxında qurtararlar.

Yaşasın Şərq İnqilab başçısı Mustafa Kamal!»

1920-ci ilin avqust ayında Türkiyənin ilk səfiri, yazıçı Məmduh Şöfkət bəy Bakıda fəaliyyətə başladı. Bundan bir il sonra 1921-ci ilin oktyabrında Ibrahim Əbilov Türkiyədə Azərbaycanın ilk səfiri oldu. Bunlar Mustafa Kamal Paşanı çox sevindirirdi. Azərbaycan bayragın Mustafa Kamal Paşanı çox sevindirirdi. Azərbaycan bayrağını Müstafa Kamal Paşa özü şəxsən qaldırmış, İbrahim Əbilovun nitqinə cavabən özü də nitq söyləmiş və demişdir: «Milli hüdudlarımız daxilində hürr və müstəqil yaşamaq istərdik... Millətimiz bu həqiqətin qardaş Azərbaycanın mümessili tərəfindən də təsdiq edildiyini eşitməklə böyük bir səadət duyar. Rum eli, Anadolu xalqı Azəri qardaşlarının qəlbi öz qəlbi kimi döyündüyünü bilirlər».

* S.İ.Aralov. Sovet diplomatının xatirələri, Moskva, 1960, səh.102.



İbrahim Əbilov həmişə Nərimanovla əlaqə saxlayır və onun Türkiyə haqqında dediklərini həyata keçirirdi. Nərimanov bilirdi ki, Türkiyənin düşmənləri çoxdur və onlar bizim əlaqələrimizi pozmağa çalışırlar. O, Əbilova yazırdı: «Buna görə siz türk xalq kütləsi arasında geniş təbliğat işi aparmalısınız və onları inandırmalısınız ki, Sovet Rusiyası ilə dostluq əlaqələri bütünlüklə onların milli maraqlarına cavab verir».

N.Nərimanov Türkiyəyə İbrahim Əbilova göndərdiyi məktubların birində yazırdı : «Əzizim yoldaş İbrahim! Teleqramlarınızı və axırıncı məktubunuzu oxudum. Bu vaxta kimi apardığınız xətti-hərəkət düzdür. Ümid edirəm ki, bundan sonra da səhviniz olmayacaq.

Bir şeyi gərəkdir unutmayaq: Rusiya və Türkiyə tərəfində müəyyən şəxslər vardır ki, istəyirlər aranı qarışdırsınlar. Siz burada olarkən mən deyirdim daşnaklar bu yolda işləyirlər. İndi məlum olur ki, Zaqafqaziyanın tamam əksinqilabçıları bu fikirdə birləşib gözəl Qafqazı yenə də qan ocağına döndərmək istəyirlər. Bir neçə türk aferistləri hazır bu yolda işlənən işin aqibətini kor gözləri ilə görmürlər. Bu aferistlərdən Gürcüstan və Ermənistanda da az deyildir».*

Böyük siyasət adamı, hər bir hadisədən baş çixarmagı bacaran N.Nərimanov öz səfirinə bildirirdi ki, «Çiçerinin Şərq siyasətində işlətdiyi fikirlər büsbütün yanlışdır. İran bizdən bilmərrə üz döndərdi. Çiçerin ingilislərə aldanıb bizim əlimizlə İranın inqilab çırağını söndürdü. İndi isə Türkiyə haqqında böyük səhvlər edir... Çiçerinin siyasəti barəsində böyük bir məruzə yazıb göndərmişəm».**

N.Nərimanov bu məktubda da Rusiya ilə ittifaq bağlamağın

* Azərbaycan Respublikasının siyasi partiyalar və ictimai hərəkatla arxiv idarəsi, fond 609, siyahı 1, iş 43

** Yenə orada

əhəmiyyətindən danışır və yazır ki, «hərgah Türkiyə xüsusi mənfəəti üçün yox, ümumi mənfəəti üçün Şərqin xilasını istəyirsə gərəkdir Rusiyaya yavuqlaşsın. Biz ancaq Rusiya şüari ilə Şərqi xilas edə biləcəyik... Mən buna əminəm».

Bu əmniyyətlə də Nərimanov hərəkət edir, türk respublikasına da xeyir vermək istəyirdi.

Onu da deyim ki, Mustafa Kamal Paşa Ibrahim Əbilova çox hörmət edirdi. Onun Anadoluda doğulmuş və uzun müddət Bakıda yüksək vəzifələrdə işləmiş qızının adını da özü Anadolu qoymuşdur.

Anadolu İbrahim qızı Bakı şəhərinin Yasamal (keçmiş Oktyabr) rayonunun xalq deputatlar sovetinin sədri, Respublika həmkarlar təşkilatının sədri vəzifələrində işləmişdir.

S.Aralovun öz dostu İbrahim Əbilov haqqında gözəl xatirələri vardır. O, 1967-ci ildə yazdığı həmin xatirələrdə deyirdi: "İqtisadi konqres qurtaran kimi biz Əbilovla mehmanxanaya gəldik. Bizim otaqlarımız yanaşı idi. Birdən gecə yarısı Əbilovun arvadı Tamara Aleksandrovna qapını bərkdən döydü. O göz yaşları içərisində dedi ki, Əbilov özünü pis hiss edir. Biz durmadan onun otağına keçdik. Əbilovun bərk pristupu tutmuş və çarpayının üstündə qovrulurdu. Həkim çağırdıq, Mustafa Kamal Paşaya zəng etdik. Mustafa Kamal öz həkimi-professoru göndərdi. Qərara gəldilər ki, təcili əməliyyat olunmalıdır. Əməliyyat göstərdi ki, onun bağırsaq keçməzliyi var. 1923-cü il fevralın 23-də İbrahim Əbilov vəfat etdi." *

Atatürk onun cənazəsinin vətənə göndərilməsində şəxsən iştirak etmişdir.

Mustafa Kamal Paşanin səfirə hörmət və qayğısı Azərbaycana, onun türk xalqı ilə ruhu bir, qəlbi bir xalqına hörməti idi.

* Bax:Azərbaycan-Türkiyə münasibətləri (sənətlər və materiallar), Bakı 2002, səh. 312.



## ERMƏNİ MƏSƏLƏSİ TÜRKLƏR ÜÇÜN ÖLÜM-DİRİM MƏSƏLƏSİDİR

1921-ci ilin fevral ayında Rusiyanın Türkiyəyə vəd etdiyi maddi yardımı almaq üçün Bakıya gəlmiş türk nümayəndə heyətini N.Nərimanov qəbul etmiş, V.I.Leninə xüsusi məktub yazmış və Bəhbud Şahtaxtinski ilə birlikdə onları Moskvaya ölkənin rəhbərinin qəbuluna göndərmişdir.

Mərkəzi Partiya tarixi arxivində saxlanan və akademik Tofiq Köçərli tərəfindən son vaxtlarda çap edilən həmin məktub bir neçə cəhətdən əhəmiyyətlidir. Birincisi, Nərimanov yazır ki: «Mən burada Türkiyə nümayəndə heyətı ilə ətraflı söhbət etdim. Mən qətiyyən şübhə etmirəm ki, türklər İngiltərəyə qarşı çıxaraq özlərinin taleyini bizimlə bağlamaq istəyirlər».

Onlar üçün ən prinsipial məsələ erməni məsələsidir. Həmin məsələni özlərinin xeyrinə həll etmək üçün maksimum cəhd göstərirlər.

Nərimanov bir dövlət başçısı kimi Leninin diqqətini Türkiyə üçün mühüm məsələlərə yönəldir və onlarla söhbət əsnasında bu qərara gəlir ki, «Erməni məsələsi türklər üçün ölüm-dirim məsələsidir. Əgər biz bu məsələdə güzəştə getsək, camaat bizim arxamızca getməyəcək. Burası da var ki, həmin məsələnin bizim xeyrimizə həll edilməsi qüdrətimizi daha da artırar».*

Bəli, «həmin məsələnin bizim xeyrimizə həll edilməsi qüdrətimizi daha da artırar». Bu incəlikləri Nərimanov böyük Rusiyanın başçısı Leninə başa salırdı. Lenin Nərimanovun məktubunun lazım olan yerlərinin altından öz əli ilə xətlər çəkmişdir.

* Ş.Qurbanov. Nəriman Nərimanov. Ömrünün son illəri. Bakı, 2003, səh. 312.

Bu onu göstərir ki, Nərimanovun fikirlərinə Lenin çox böyük əhəmiyyət verirdi. «Onlar bizimlə birlikdə son damla qanlarınadək İngiltərəyə qarşı vuruşmaga hazırdılar. Lakin Moskva erməni məsələsinə görə türkləri özündən uzaqlaşdırsa onlar məyus olub ingilislərə üz tuta bilərlər. O zaman nələr baş verə bilər».

Lenin «erməni məsələsinə görə» sözlərinin altında xətt çəkməsi çox şey deyir. Nərimanov siyasət adamı idi. Ölkədə də qonşu dövlətlərdəki vəziyyət onun üçün çox aydın idi və aydın oldugu üçün Lenini də başa salır və heç nəyi gizlətmirdi.

«Əziz Vladimir İliç, fəlakəti irəlicədən görür və Sizdən heç nəyi gizlətməməyi zəruri sayıram. Mənə burada inanır və heç nəyi gizlətmirlər: vəziyyət barədə və bütün ucqar muxtar respublikaların bizə münasibəti barədə məndə şifahi və yazılı məlumat var.

Bütün məlumatlarda Sovet Rusiyasının müstəmləkəçilik siyasəti yeritdiyindən bəhs edilir.»

Nərimanov bir məsələdə də Lenini ehtiyatlı olmağa çağırır və xəbərdar edirdi: «Mən Sizi xəbərdar etməyə borcluyam: yoldaş Çiçerin Şərq məsələsini dolaşdırır. O, erməni məsələsinə həddindən artıq uyur və məhz erməni məsələsi üzündən türklərlə aramızın dəyməsi nəticəsində nələr baş verə biləcəyini nəzərə almır. Mən qəti deyirəm – Qafqazda (Dağıstanda və Gürcüstanda) yaranmış indiki vəziyyətdə Azərbaycanı əlimizdə saxlamaq istəyiriksə, biz nəyin bahasına olursa-olsun türklərlə möhkəm ittifaq bağlamalıyıq».

N. Nərimanov bir qədər də Lenindən qabağa gedir və təkid edir və yazır ki, "Mən təkidlə deyirəm: məhz bu ittifaq bütün müsəlman Şərqini bizə verər və bunun sayəsində fərsiz Şərq siyasətimiz nəticəsində yaranmış ümumi narazılıq aradan qalxar



və bu yolla biz fitnəkarlıq silahının İngiltərənin əlindən almış olarıq".

Lenin bu cümlədəki "erməni məsələsinə həddindən artıq uyur" və «biz nəyin bahasına olursa olsun türkləri möhkəm ittifaq bağlamalıyıq» sözlərinin də altından xətt çəkmişdir. Bu göstərir ki, o, Nərimanovun sözlərinin əsas yerlərinə xüsusi əhəmiyyət verirdi. Lenin bu məktubu fevralın 19-da oxumuşdur və belə bir dərkənar yazmışdır: «Yoldaş Stalin! Rica edirəm iki kəlmə yazasınız və məktubu MK-nın bütün üzvlərinə göndərib (məxfi) xahiş edəsiniz ki, oxusunlar və aşagı hissəsində qeyd etsinlər ki, oxumuşam. Sonra məktubu mənə qaytarın».

N. Krestinski, L. Serebryakov, Zinovyev, Radek, Rıkov, Kalinin, Buxarin məktubla tanış olduqları haqqında «Oxudum» sözünü yazmışlar. Həmin şəxslərin ikisi öz fikrini geniş yazmışdır. Kamenev yazır ki, «Zənnimcə, N.Nərimanov ucqarların əhvali-ruhiyyəsini səciyyələndirməkdə 3/4-ə qədər haqlıdır».

«Buxarin isə «Oxudum» sözündən sonra əlavə edir: «Əgər səhv etmirəmsə, həmin nümayəndə heyəti artıq gəlmişdir və heç yerdə qəbul edilmir. MK aparatının əməkdaşlarından kimsə mənə dedi ki, onlar gəlmişdilər. Məsələyə bütövlükdə cümə axşamı MK-da baxmaq lazımdır».

Bütün bunlar göstərir ki, Lenin Nərimanova nə qədər diqqətlə yanaşır və Mərkəzi Komitə üzvlərindən bəziləri də o cür həssaslıqla baxırdılar. Bir məsələni də qeyd edim ki, Nərimanov bununla əlaqədar başqa məsələlərə də diqqət yetirməyi Lenindən xahiş edirdi. Bu çox mühüm məsələdir və sonralar Nərimanovun boynuna yüklənmiş, Lenin öləndən sonra onun faciəsinə səbəb olmuşdur. Nəimanov yazırdı: «Fövqəladə komissiyanın və Xüsusi Şöbənin agentləri... hər yerdə millətçi axtarırlar və görmürlər ki, ilk növbədə elə bu orqanların agetləri

və mərkəzdən göndərilmiş başqa işçilər ən kobud millətçilərdir».

Həmin adamlar bizim işimizdə «inamsızlığı gücləndirir, Əfqanistanı bizim əleyhimizə qaldırır, Hindistana təsir etmək imkanından məhrum edirlər». Nəticədə Türkistanda da vəziyyəti pisləşdirdilər.

Nərimanov göstərirdi ki, biz Şərqi xilas etməliyik, lakin «bütün bunlar yerli işçilər üçün dözülməz vəziyyət yaradır və Şərqi xilaskarı olmaq etibarilə Sovet Rusiyasının inamsızlığını gücləndirir».

Mustafa Kamal Paşa Türkiyənin bu dəfəki nümayəndə heyətinə Yusif Kamal, Əli Fuad və Riza Nurunu daxil etmişdir. «Yusif Kamal bəy Rusiyanı bilir, o getsin» demişdi. «Bir kişi yenə lazımdır» deyəndə Mustafa Kamal Paşa bir qədər dayanmış, Riza Nurun üzünə baxmış və «Sən də gedərsənmi? demişdi. O isə dərhal dillənmişdi: gedərəm».

Bu heyətin içərisindən «Rusiyanı bilən» Əli Fuad bir dəfə Rusiyaya getmiş, lakin əli boş qayıtmışdır. Avropa dövlətlərindən heç biri Türkiyəyə yardım əlini uzatmırdı. Bircə Rusiya idi ki, maddi köməyə söz vermişdi və bunlar həmin ümidlə Moskvaya yola düşdülər.

İxtisas etibarilə həkim olan və bir neçə dil bilən, Riza Nur Türkiyənin ən məşhur diplomatlarından idi. O, «Moskva - Sakarya xatirələri» əsərində türk diplomatiyasının ilk dolğun mənzərəsini yaratmışdır. Müəllif indiyə qədər heç bir xarici dövlət tərəfindən tanınmayan bir yabancı dövləti tanımasını və çox çətinliklə də olsa buna nail olmasını dolğun boyalarla verə bilmişdi. Üstəlik Naxçıvan məsələsi həll edilmişdi, yəni «Azərbaycan bu haqqı-himayəni əsla üçüncü bir dövlətə tərk etməməli idi.»



Riza Nur yoldaşlari ilə gələndə Nərimanovla görüşür və bu insan ona çox xoş gəlir. «Azəri hökuməti kommunist bir cümhuriyyətdir. Baş komissar olaraq doktor Nəriman Nərimanov var. Bu zat ağlı başında bir adamdır. Çox məlumatlıdır. Epeycə, sıx-sıx və baş-başa görüşdüm. Baxdim ki, çox yaxşı bir adamdır. Özümə qarşı etimad istədim.

Açıldı və dedi ki: «Bolşevik nədir? Bu rəzalət bizə yaraşırmı? Biz türkük. Millətin ənənələri ilə yaşarıq». Çox xoşuma getdi və çox sevdim.... Mənə Nəriman Moskva haqqında çox gözəl məlumat verdi».*

Şübhəsiz ki, bu söhbətlərin mərkəzində Mustafa Kamal Paşa dururdu və Nəriman Nərimanov onu daha da sevirdi. Hətta ona Türkiyənin xilaskarı kimi baxırdı.

Riza Nur göstərir ki, «bir dəfə bizi Nərimanov qonaq dəvət etdi. Yedik, içdik, oynadılar, çaldılar. Burada biri diqqətimi cəlb etdi... adətən casus hissini verirdi. Nərimandan soruşdum «Rus casusudur» dedi».

Nəriman Nərimanov inanmadığı adama belə şey deməzdi. Onun Mustafa Kamal Paşaya və onun Riza Nur kimi nümayəndəsinə o qədər vurulmuşdur ki, öz yanındakı adamları da onlara düzgün çatdırmaqdan çəkinmirdi.

Bir məsələ də vardır. Bu da ondan ibarət idi ki, İrfan Ülkü «Bağımsızlıqdan sonra Azərbaycan» adlı əsərində yazır: «Riza Nur Nəriman Nərimanovla qarşılaşmasını və Nərimanovun onun özü ilə gizli görüşmədə anlatdıqları məsələləri illər ötəndən sonra açıqlayır». Deməli Nərimanov Türkiyə nümayəndəsi, Mustafa Kamal Paşanın göndərdiyi adamı təklikdə də qəbul etmiş, bəzi mətləbləri ona başa salmışdir.

Riza Nur söhbət əsnasında Nərimanovun bir cəhətini də

* Dr. Riza Nurun Moskva-Sakarya xatirələri. İstanbul, 1991, səh 56.

qeyd edir: «Bir gün Nərimanov türklər üçün latın hərflərini qəbul və tədbiq edəcəyini söylədi. O bunun çox tərəfdarı idi. Onunla iki saata qədər bu işdən əl çəkməsini söylədim. Və nəhayət «türk yalnız siz deyilsiniz, bu səbəblə həyata keçirə bilməzsiniz. Bu ümumi bir konfransla qəbul oluna bilən» dedim. Qane oldu və əl çəkdi. Bu yolla əlifba dəyişikliyi üç-dörd il geri qaldi».

Bu da Mustafa Kamal Paşanın diqqətini ən çox cəlb edənlərdən biri və ən vaciblisi idi. Bu bir qədər sonra ümumi müzakirəyə qoyuldu və həyata keçirildi.

Türkiyə nümayəndələrini Nərimanov bir neçə gün yanında saxladıqdan sonra, yuxarıda deyildiyi kimi, iş asan olsun deyə Behbut Şahtaxtinskini də onlara qoşmuş və xüsusi məktubla Moskvaya yola salmışdı. Onlar Moskvaya gəlib əvvəlcə Stalinlə görüşdülər. Pul istəməli idilər, özləri üçün yox, xalq, vətən əsgər üçün. Stalin soruşdu:

- Nə gədər pul lazımdır?

- Otuz milion qızıl pul! - dedi Riza Nur.

Stalin güldü və dedi:

- Bu qədər pul bizdə yoxdur. Tapmaq da mümkün deyil. Yarım milyon pul verə bilərik.

Riza Nur bir də dilləndi:

- Əsla mümkün deyil.

Çox çənə-boğazdan sonra bir milyon qızıl pulla razılaşdılar. Bakıda Nərimanov da, onların tanıdığı bəzi adamlar da demişdi ki, hər şeydə əsas sima Stalindir. Onlar özləri də buna əmin oldular. Stalin dedi: «Sənətlərin hazırlanması Çiçerinin işidir. Mən indi ona əmr edərəm. Bu əsaslarla müşahidə hazırlan».*

Bu qədər əzab-əziyyətin, yazı-pozunun nəticəsi bu oldu.

* Dr. Riza Nurun Moskva-Sakarya xatirələri. İstanbul, 1991, səh 265.



Leninin yanına düşə bilmədilər. «Çox xəstədir, görüşəçək halda deyildir»-dedilər. Çiçerin onları çox pis qarşıladı. «Sizin ermənilləri məğlub etməniz bir imperializmdir. Bir imperialist dövlət belə müahidə bağlamağa necə gəlir. Sizin ermənilərə yapdığınız zülmlər, qatliyamlar rus müsəlmanlarının qəlbində yaralar açmışdır, bizi inlətmişdi».

Nərimanovun Leninə yazdığı məktubda «Çiçerin Şərq məsələsini dolaşdırır» sözləri öz həqiqi qıymətini alır.

Stalinin dediyi kimi Çiçerinə təpinmiş və o, yumşalmışdır. Onlar Bakıya dönəndə yenə Nərimanova baş çəkmiş və demişlər ki, «sizinlə bağlanacaq muahidəmiz var. Bu Naxçıvan məsələsidir. Çünki bu Naxçıvanın haqqı-himayəni əsla üçüncü dövlətə tərk etməməsi idi.»

Konfransın harada olması haqda mübahisə oldu. Biri dedi Bakıda, başqası dedi Tiflisdə, Karsı da deyən oldu. Karsın üstündə dayandılar. Həmin il Karsda toplanıb bu haqda tarixi bir qərara gəldilər. Bu çox mühüm qərar idi və Naxçıvanın birdəfəlik Azərbaycanın tərkibində qalması məsələsini həll etdi.

Nərimanov Riza Nurla söhbətində maraqlı bir təklif də edir. O, bunu belə əsaslandırır: «biz bu üç Cümhuriyyət arasında bir ittihad bağlamaq üzrəyik. Yəni Azərbaycan, Gürcüstan, Ermənistan və bəlkə buna Dağıstan da daxil olacaqdır. Bu hökümətlər arasında təşəkkül edəcək ittihadla Türkiyə arasında da bir ittifaq yaratmaq istəyirik».

«Bu ittihad kimə qarşı olacaq?» - deyə soruşanda Nərimanov demişdi: «Imperializmə qarşı olacaq!»

«Haradan gələcək imperializmə qarşı? - sualında Nərimanov demişdi: «hər tərəfdən gələcək.»

Hətta Nərimanovun fikrincə, əgər Rusiyada indiki hökümət dağılarsa «mütləq yerinə imperialist hökümət gələcək, o impe-

rialist hökümətə qarşı da ittifaq edəcəyik». Nərimanovun bu fikrinin Mustafa Kamal Paşanin «bu gün əlində möhkəm tutduğu millətlər ovcundan ayırılsa» Türkiyə nə edəcəyini bilməlidir» fikri ilə çox yaxınlığı var və bunlar vaxtında deyildiyinə və əhəmiyyətinə görə bir-birini tamamlayır. Lakin bu məsələ haqqında türk dostlarımızın səlahiyyətləri olmadığına görə o qalmışdır və təsdiq olunmamışdır.

## QARDAŞ QARDAŞA BORC VERMƏZ, ƏL TUTAR

Azərbaycan xalqı, xüsusən Nərimanov türk ordusunun 1918-ci ildə Azərbaycana qəlməsini və xalqımızı qəddar və qaniçən ermənilərin əlindən almasını heç vaxt unutmurdu. Yeri gəldikcə imkanı daxilində nə kömək lazımdır eləyirdi. Nərimanovun şəxsi göstərişi ilə Azərbaycanın xarici işlər naziri M.D.Hüseynov Şərq cəbhəsinin komandanı Kazım Qarabəkir Paşaya göndərdiyi teleqramda türk xalqının böyük qələbələri münasibətilə onlara yardım üçün 30 sistern neft, 2 sistern benzin, 8 sistern kerosin göndərmişdir. Azərbaycanın qardaş türk xalqına göndərdiyi bu ilk yardım gələcək böyük əl tutmaların açarı oldu. O zaman ayağa qalxmış türk xalqı öz müstəqilliyi uğrunda yunanlara və ingilislərə qarşı mübarizə apararkən yanacağa böyük ehtiyac duyurdu. Bu ehtiyacı isə Azərbaycan ödəyirdi. 1921-ci ilin may ayında Azərbaycan dövləti Türkiyəyə 62 sistern neft göndərdi və bundan sonra hər ay 3 vaqon kerosin göndərməyə boyun oldu.

1922-ci ildə isə Azərbaycan Türkiyəyə Batum portu ilə 9 min tondan artıq kerosin və 350 ton benzin göndərmişdir. Bu cür



yardım sonralar da davam etdirlmişdir.

Nərimanov hər an Türkiyənin inkişafını izləyir və onun sürətli gedişinə böyük qiymət verirdi. O «Lenin və Şərq» əsərində yazırdı: «Köhnə Türkiyə böyük Avropa jandarmeriyasının çirkli sapoqları altında ölüb getdi, amma bunun yerində «tamam yeni inqilabçı Türkiyə doğuldu və özünün son sözünü dedi: « biz öz türk həyatımızla yaşayacağıq və bizim üzərimizdə dayə olmaq istəyənləri tamamilə rədd edirik».

Nərimanov həmin əsərdə onu da deyirdi ki, «Türkiyə ancaq bizim və əzilmiş Asiya xalqlarının köməyi ilə imperializm buxovundan xilas olacaq və o zaman o, imperialist qüvvələrə deyəcək: «Mən bundan sonra xəstə adam deyiləm».

Nəriman Nərimanov sənədləri arasında bir sərəncam da vardır. Bu sərəncam «Qorxanaya» göndərilmişdir. Burada Sovnarkomun sədri və katibın adı yazılsa da bircə Nərimanov qol çəkmişdir. Bu Türkiyəyə gedəcək nümayəndə heyəti üçün qiymətli əşyaların buraxılması haqqinda göstəriş idi. Burada bir milyon qızıl pul dəyərində olan qızıldan qadın sumkası, 4 dənə kişi saatı, qızıldan quran qabı, qızıldan papiros qutusu, qızıl zəncir vardır. 1921-ci il avqustun 30-da verilmiş həmin sərəncamın üzərində Nərimanov öz xətti ilə «hədiyyə üçün» sözlərini də yazmışdır.

O Bakıda olan Türkiyə səfiri Məhmud Şövkət bəylə sıx əlaqə saxlayır və Türkiyədə baş verən hadisələrlə tanış olurdu. Mustafa Kamal Paşa özü də Nərimanovun bu işlərdə rolunu yüksək qiymətləndirirdi. Mustafa Kamal Paşa yazırdı: «Azərbaycan dövləti xalq dövlətidir və bu dövlətin vasitəçiliyi ilə başqa dostlarımızla da əlaqələr yaradılır. Doğrudan da Azərbaycanın coğrafi şəraitini nəzərə alsaq, aydın olur ki, o, Asiyanın qardaş hökümətlərinin və millətlərinin təmas nöqtəsi-

dir. Azərbaycanın yerləşdiyi xüsusi məkan bu məsələnin əhəmiyyətini olduqca artırır.»

O zaman Ankara dövlətinin maddi vəziyyəti çox ağır idi. Hara əl atırdın pul tələb olunurdu. Pul da yox idi. Doğan Avçıoğlu yazır ki, "Bu günlərimiz ən acı günlərimizdir. Mustafa Kamalın yalnız şəkərsiz, qəhvəsiz, yeməksiz deyil, hətta əkməksiz qaldığı günlər də olmuşdur. "Qarabəkir paşa gənc Azərbaycan hökumətindən pul istəməyi məsləhət gördü. Onda Mustafa Kamal Qarabəkir paşaya yazırdı: "Əldə bir qəpik paranın olmadığını siz bilirsiniz. Hələ də içəridə pul üçün bir mənbə də tapılmır. Başqa tərəfdən belə bir mənbə tapılana qədər Azərbaycan hökumətindən bir qədər geniş ölçüdə borc almağınız haqda düşünmənizi və əldə etməyinizi rica edirəm".

Türkiyənin Azərbaycanda ilk səfiri Məmduh Şövkət bəy idi. O, ağıllı və gözəl bir insan idi. Onun ölümü ilə əlaqədar olaraq Türkiyədə çıxan "Azərbaycan" jurnalı yazırdı: "Məmduh Şövkət bəyin bizim üçün əsil dəyəri onun azad Azərbaycan Hökumətinin yanında ilk elçi olmasıdır. Bakıda elçi olduğu sıralarda Azərbaycan gəncləri ilə sıx təmaslarda olmuş, milli yığıncaqlara qatılmış və iki Türk ölkəsi arasında mədəniyyət bağlarını qüvvətləndirməyə çalışmışdır.

Məmduh Şövkət bəy Azərbaycan ədiblərindən xüsusilə Molla Pənah Vaqifin və Hacı Seyid Əzim Şirvaninin heyranı idi. Hətta onun fikrincə Molla Pənah Vaqif şerinin sadəliyi, təşbeh və istiarələrinin qüvvəti, təbiinin genişliyi və xəyalınının yüksəkliyi etibarilə Türk dünyasının ən böyük şairi imiş. Rəhmətlik Azərbaycan ədəbiyyatına dair bir çox kitablar toplamışdı, və eyni zamanda bəzi şairlərimizin şer parçalarını əzbərdən oxuyurdu."*

* Bax. "Azərbaycan" jurnalı /Türkiyə/, 1952, N 3, Səh 10.



Mustafa Kamal Paşa özü N.Nərimanova məktub yazmış və borc pul verməsini xahiş etmişdir. Türkiyənin səfiri Məmduh Şövkət bəy 1921-ci il martın 17-də həmin məktubu Nərimanova çatdırdı. Nərimanov dərhal 500 kiloluq qızıl göndərdi. Bunun 200 kilosu büdcə üçün saxlanır, qalanı isə ayrı xərclərə sərf olunur. Daha sonra Rusiyadan 10 milyon qızıl yenə göndərilir.* Türkiyənin vəziyyəti bir qədər yüngülləşir. N.Nərimanov Mustafa Kamal Paşaya yazırdı: "Paşam qardaş qardaşa borc verməz, əl tutar".

Eşq olsun belə dostluğa və qardaşlığa!

Bundan bir neçə gün sonra "1921-ci il martın 23-də Azərbaycan Hökuməti yenidən Türkiyəyə lazımi işlər üçün 30 sistern neft, 2 sistern benzin, 8 sistern yağ Türkiyəyə ərmağan olaraq Qarsa göndərdi".**

Azərbaycanla Türkiyə həmişə belə olmuşdur. 1918-ci ildə Türkiyə özü müharibədə ola-ola Azərbaycana qoşun yeritmiş, Azərbaycanı təpədən dırnağa qədər silahlanmış ermənilərin əlindən qurtarmışdır. Bunu heç vaxt yaddan çıxartmaq olmaz.

Əvvəla ona görə unutmaq olmaz ki, o zaman Azərbaycanın vəziyyəti olduqca ağır, çətin və başdan-ayağa faciələrlə dolu idi. Nə vəsaiti vardı, nə də köməyi.

Azərbaycan xalq cümhuriyyətinin 1918-ci il dekabrın 7-də ilk iclasında Fətəli Xan Xoyski öz çıxışında deyirdi: "Hökumətimizi elə bir zamanda təşkil etdik ki, bir kənddən digərinə getmək qorxulu idi. Heç kəsin irzi, namusu, malı əmində deyildi. Dəmir yolları tamamilə yatmış kimi idi, poçt və teleqraf müxabiratı bilmərrə kəsilmişdi. Dövlətin ən artıq möhtac olduğu maliyyə naminə heç bir şey yox idi. Dövlət

* Doğan Avçıoğlu. Milli Qurtuluş tariximiz. 3-cü cild səh.1009.

** A.Şəmsəddinov. Qurtuluş savaşı illərində Türkiyə-Sovetlər Birliyi əlaqələri. Səh 66.

makinasını təşkil edən idarələrin həpsi dağılmışdı., xidmətçilər qaçmışdı, idarələrin bəzilərinin adı var idisə, özü yox idi. Hər yerdə beş-on adam yığışıb bir hökumət düzəldir, bir qanun veriyordu. Hər kəs özünə bir hökumət idi. Böylə bir zamanda bütün Azərbaycan tərəfindən seçilmiş Milli Şura Hökuməti təşkil edib məmləkətin müqəddəratını ona tapşırdı... Fəqət bununla bərabər daxili işlər o qədər pərişan idi ki, hökumət daxilində qanun və asayiş bərpasında aciz idi, zira nə əsgəri qüvvəmiz var idi, nə silahımız".

Bəli, belə bir dövrdə yalın əllə cümhuriyyət quran azərbaycanlıları həvəsdən başqa əllərində heç bir şey yox idi. Onlar ilk addımlarını Tiflisdə atıb dövlət yaratdılar və bunu dünyaya elan etdikdən sonra Gəncəyə köçdülər. Vəhşi ermənilər bunların qanına susamışdı, Bakıya hakim kəsilmişdilər.Onlar Bakıya buraxılmırdı. O zaman Bakı azərbaycanlıların qanı ilə yuyulmuşdu. 1918-ci ilin mart ayında 30 min azərbaycanlı öldürülmüşdür ki, bunların 15 mini Bakı sakini idi. Onda gənc cümhuriyyətçilər 1918-ci il iyun ayının 4-də Türkiyə dövlətinə əsgəri kömək üçün müraciət etdi. Milli Şuranın sədri Məmməd Əmin Rəsulzadə xarici işlər naziri ilə Batumda idi .Onlar Türkiyə arasında Azərbaycana əsgəri yardım üçün müqavilə bağladılar. Tezliklə Nuru Paşanın komandası altında türk ordusu Gəncəyə gəldi və bu ordu Qafqaz müsəlman ordusu adı ilə hücuma keçdi. Gəncədə Bakıya qədər vuruşa-vuruşa gəlib sentyabrın 15-də Bakını azərbaycanlılara verdi. Bunların dalınca Azərböaycan xalq cümhuriyyəti Gəncədən Bakıya köçdü, özünün təşkilat işlərinə başladı.

Türk qoşunları Gəncədən Bakıya qədər vuruşlarda və ümumiyyətlə ayrı-ayrı vuruş nöktələrində 1132 nəfər şəhid vermişdir. Onlar bizim üçün, Azərbaycan xalqı üçün şəhid



oldular. Onların qəbirləri Ucar, Ağsu, Şamaxı kimi yerlərdə əzizlənib saxlanılır. İndi Bakının ən uca yerində onlar üçün abidə ucaldılıb, bir-bir adları həkk olunub, orada uyuyurlar. O günlərdən indi artıq 85 il keçir.

Bu ilin sentyabr ayının 14-də Azərbaycan Respublikasının Milli Məclisinin iclasında mən bir millət vəkili kimi bu barədə çıxış elədim və dedim: "Bu gün Bakının azad olmasından düz 85 il keçir. Həmin hadisələrdə şəhid olanlar bizim üçün ən qiymətli adamlardır. Mən xahiş edirəm, həmin şəhidlərin ruhunu bir dəqiqəlik sükutla yad edək".

İndinin özündə də Türkiyə həmişə Azərbaycanın yanında olmuş, kədərinə kədərlənmiş, sevincinə sevinmişdir. Dini bir, dili bir, tarixi bir, «bir millət, iki dövlət» olan bu iki xalqın arasında ayrıseçkilik olmamış və ola da bilməz .

Hamı durdu ayağa və onları yad elədik. Səhəri hökumət və Milli Məclis tərəfindən onların qəbri üstünə əklilər qoyuldu.



*M.Ə.Sabirin ilk heykəlinin açılışında N.Nərimanov çıxış edərkən*

## I. N.Nərimanovun V.İ.Leninə məktubu*

Əziz Vladimir İliç!

Türkiyə nümayəndə heyəti bizim nümayəndəmiz Behbud Şahtaxtinski ilə birlikdə Moskvaya gedir. Mən burada Türkiyə nümayəndə heyəti ilə ətraflı söhbət etdim. Mən qətiyyən şübhə etmirəm ki, türklər İngiltərəyə qarşı çıxaraq, özlərinin taleyini sidq ürəkdən bizimlə bağlamaq istəyirlər. Onlar üçün ən prinsipial məsələ erməni məsələsidir. Həmin məsələni özlərinin xeyrinə həll etmək üçün maksimum cəhd göstərirlər. Mən Batum və Axalsix barədə danışdım, lakin onlar dedilər:"Erməni məsələsi ölüm-dirim məsələsidir. Əgər biz bu məsələdə güzəştə getsək, kütlə bizim arxamızca getməz. Burası da var ki, həmin məsələnin bizim xeyrimizə həll edilməsi qüdrətimizi artırar."

Şübhəsiz, onlar Antanatanın əleyhinədirlər; onlar bizimlə birlikdə son damla qanlarınadək İngiltərəyə qarşı vuruşmağa hazırdırlar, lakin Moskva erməni məsələsinə görə türkləri özündən uzaqlaşdırsa, onlar məyus olub, İngiltərəyə üz tuta bilərlər. O zaman nələr baş verə bilər?

Müsəlman Şərqində Avropa imperializminin əsarətindən xilas olmaq naminə ayağa qalxan türklərin azadlıq uğrunda mübarizlər kimi şöhrəti get-gedə artır. Müqəddəs müharibə /cihad/ elan etməklə biz özümüz də buna qismən təkan vermişik. Əgər indi türklərdən üz döndərsək, biz müsəlman Şərqində bütün nüfuzumuzu itirərik, həm də bizim üçün fəlakətli nəticələr verə biləcək Şərq cəbhəsi açmış olarıq. Əgər İngiltərə bu məqamdan istifadə edib, yenə də Polşanın və



Rumınyanın iştirakı ilə Qərb cəbhəsi açsa, dağıntılara məruz qaldığımız bir vaxtda bizim vəziyyətimizi təsəvvür etmək olar.

Əziz Vladimir İliç, fəlakəti irəlicədən görür və Sizdən heç nəyi gizlətməməyi zəruri sayıram. Mənə inanır və heç nəyi gizlətmirlər: vəziyyət barədə və bütün ucqar muxtar respublikaların bizə münasibəti barədə məndə şifahi və yazılı məlumat var. Bütün məlumatlarda Sovet Rusiyasının müstəmləkəçilik siyasəti yeritdiyindən bəhs edilir.

Fövqəladə komissiyanın və Xüsusi Şöbənin agentləri həmin respublikaların hamısında yerli məsul işçiləri vahiməyə salmışlar. Bu orqanlar hər yerdə millətçi axtarır və görmürlər ki, ilk növbədə elə *bu* orqanların agentləri və Mərkəzdən göndərilmiş başqa işçilər ən kobud millətçilərdir. Bu işçilər Mərkəzin diqqətini cəlb etmək üçün yalan məlumatlar yayır və beləliklə, gərgin şərait yaradırlar.

Bütün bunlar yerli işçilər üçün dözülməz vəziyyət yaradır və Şərqin xilaskarı olmaq etibarilə Sovet Rusiyasına obivatelin inamsızlığını gücləndirir.

Hələ keçən il mən təkid edirdim ki, Əfqanıstanı öz tərəfimizə çəkək /Mərkəzi Komitəyə mənim məlumatlarım/, ancaq məhəl qoymadılar, hətta Əfqanıstanı bizim əleyhimizə qaldırdılar və müəyyən istiqamətdə Hindistana təsir göstərmək imkanından bizi məhrum etdilər və beləliklə, Türküstanda da vəziyyəti pisləşdirdilər.

Bəzən fikirləşirsən ki, özlərini hər işi Sovet Rusiyasının xeyrinə görənlər kimi göstərmək istəyən yoldaşlar bəlkə də İngiltərənin agentləridir.

İş o yerə çatmışdır ki, Sizdən başqa heç kəsə qətiyyən inanmırlar və indiyədək ona görə dözmüşlər ki, müharibə qurtarmaq bilmirdi.

Açığını desək, Buxarada, Xivədə və İranda inqilabdan sonra çox şey itirdik, lakin bütün bunlara baxmayaraq, Şərq Sizə hələ inanır və öz müqəddəratını təyin etmək barədə Sizin əvvəlki fikrinizin

nəhayət, haçan həyata keçəcəyini gözləyir. İndi Şərqdə son dərəcə gərgin bir şəraitdə biz türklərlə müharibəyə başlasaq, bu, bizim Şərq siyasətinin iflasının başlanğıcı olacaqdır. Əgər Qərbdə vəziyyətimiz möhkəm olsaydı, biz bundan qorxub çəkinməzdik.

Mən Sizi xəbərdar etməyə borcluyam: yoldaş Çiçerin Şərq məsələsini dolaşdırır, o, Erməni məsələsinə həddən artıq uyur və məhz Erməni məsələsi üzündən türklərlə aramızın dəyməsi nəticəsində nələr baş verə biləcəyini nəzərə almır. Mən qəti deyirəm- Qafqazda /Dağıstanda və Gürcüstanda/ yaranmış indiki vəziyyətdə Azərbaycanı əlimizdə saxlamaq istəyiriksə, biz nəyin bahasına olursa-olsun türklərlə möhkəm ittifaq bağlamalıyıq. Mən təkidlə deyirəm: məhz bu ittifaq bütün müsəlman Şərqini bizə verər və bunun sayəsində fərsiz Şərq siyasətimiz nəticəsində yaranmış ümumi narazılıq aradan qalxar və bu yolla biz fitnəkarlıq silahının İngiltərənin əlindən almış olarıq.*

**N.Nərimanov**
***fevral 1921-ci il.***

---

* Məktub Bakıdan göndərilmişdir. V.İ.Lenin məktubu 1921-ci il fevralın 19-da oxumuşdur. Sözlərin altından xətləri V.İ.Lenin özü çəkmişdir.

V.İ.Lenin məktubda dərkənar yazmışdır: "Yoldaş Stalin! Rica edirəm iki kəlmə rəy yazasınız və məktubu MK-nın bütün üzvlərinə göndərib /məxfi/ xahiş edəsiniz ki, oxusunlar və aşağı hissəsində qeyd etsinlər ki, oxumuşlar. Sonra məktubu mənə qaytarın. 19/II. Lenin.

Məktubda dərkənarlar və imzalar da var: "Qaytarıram". N.Krestinski. L.Serebryakov 22/II-21-ci il. "Oxudum," Zinovyev. 22/II - Radek, A.İ.Rıkov, M.Kalinin.

"Zənnimcə, N.Nərimanov ucqarların əhvali-ruhiyyəsini səciyyələndirməkdə 3/4 qədər haqlıdır". L.Kamenev.

"Oxudum". N.Buxarin. "Əgər səhv etmirəmsə, həmin nümayəndə heyəti artıq gəlmişdir və heç yerdə qəbul edilmir. MK aparatının əməkdaşlarından kimsə mənə dedi ki, onlar gəlmişdilər. Məsələyə bütövlükdə cümə axşamı MK-da baxmaq lazımdır. N.Buxarin."



## II. NƏRİMANOVUN TÜRKİYƏDƏKİ AZƏRBAYCANIN İLK SƏFİRİNƏ MƏKTUBU

### ƏZİZİM YOLDAŞ İBRAHİM /ƏBİLOV/

Teleqramlarınızı və axırıncı məktubunuzu oxudum. Bu vaxta kimi apardığınız xətti-hərəkət düzdür. Ümid edirəm ki, bundan sonra da səhviniz olmasın.

Bir şeyi biz gərək unutmayaq: Rusiya və Türkiyə tərəfindən müəyyən şəxslər vardır ki, istəyirlər aranı qarışdırsınlar. Siz burada olarkən mən deyirdim: daşnaklar bu yolda işləyirlər. İndi məlum olur ki, Zaqafqaziyanın tamam əksinqilabçıları bu fikirdə birləşib gözəl Qafqazı yenə də qan ocağına döndərmək istəyirlər. Bir neçə türk aferistləri hazırda bu yolda işlərkən işin aqibətini kor gözlərilə görməyirlər. Bu aferistlərdən Gürcüstan və Ermənistanda da az deyildir...

Çiçerinin Şərq siyasətində işlətdiyi fikirlər büsbütün yanlışdır. İran bizdən bilmərrə üz döndərdi. Çiçerin ingilislərə aldanıb bizim əlimizlə İranın inqilab çırağını söndürdü.

İndi isə Türkiyə haqqında böyük səhvlər edir. Burada Türkiyənin səhvləri də az deyildir.

Bir balaca qanadlandıqda aferistlər ayaq qoyur: İslam məmləkətlərinin birləşməsi şüarını buraxır.

Mənimcə hərgah Türkiyə istəyirsə yaşasın bu fikirdən gərəkdir əl çəksin. Tam bəla bundadır və bu şüar Türkiyəyə xeyir etməz. Bizim borcumuzdur hər iki tərəfi düşündürək. Çiçerinin səhv siyasəti barəsində böyük bir məruzə yazıb /Moskvaya/ göndərmişəm, onu var qüvvəmizlə tənqid etdik.

Siz isə orda gərəkdir ki bütün gücünüzü bu yolda sərf edəsiniz. Başa salasınız ki, Rusiya ilə əlaqələrini pozmayalar.

Hərgah Türkiyə doğrudan xüsusi mənfəəti üçün yox, ümumi mənfəəti üçün Şərqin xilasını istəyirsə gərəkdir Rusiyayay yavuqlaşsın. Biz ancaq Rusiya şüarı ilə Şərqi xilas edə biləcəyik. Firəng, ingilis buna yol verməyəcəklər. Tək öz mənfəəti üçün bütün Şərqi qurban edərsə, özü də qurban olub bitəcəkdir.

Mən buna əminəm.

Bolşevik imperializmi türkləri çaşdırsa o da onların səhvləridir. Bolşevik imperializmi Avropanın inqilabı üçündür. Avropada biz istədiyimiz inqilab meydana gələrsə bolşevik imperializmi öz-özünə yox olacaqdır. Bu cür nazik mətləbdən bunu düşünmək gərəkdir.

Bununla məktubumu tama edirəm. Ümidvaram ki, yazdığım sözlər sizin üçün müəyyən bir yol göstərər.

**N.Nərimanov**

*Azərbaycan Respublikasının Siyasi partiyalar və ictimai hərəkatlar arxivi, fond 609, siyahı 1, iş 91.*

## III. RK/b/P MK Siyasi Burosunun iclası

***15 noyabr 1923-cü il***

İştirak edirdilər: MK Siyasi Burosunun üzvləri - Zinovyev, Kamenev, Rıkov, Stalin, Tomski, Trotski,

Siyasi Buro üzvlüyünə namizədlər - Buxarin, Kalinin, Molotov, Rudzutak, N.Nərimanov - MK üzvlüyünə namizəd, RK/b/P MK-nın üzvləri - Kvirinq, Surupa, MK üzvlüyünə namizəd - Skrıpnik, RK/b/P Mərkəzi Təftiş Komissiyası Rəyasət heyətinin üzvləri - Kuybışev, Solıts, Yaroslavski.

Qərar: a/ N.Nərimanovun yazdığı ərizənin və yol. Yaroslavskinin əks-ərizəsinin oyatdığı insitent bitmiş hesab olunsun.

b/ Qeyd edilsin ki, Nərimanov yoldaş Mərkəzi Komitənin etibarını bütünlüklə qazanmışdır və Nərimanov yoldaşdan xahiş olunsun ki, o, istefa ərizəsini geri götürsün.



## *MÜNDƏRİCAT*

TÜRK DÜNYASININ LİDERİ .......... 3

NƏRİMAN NƏRİMANOV.......... 11

“KAŞ MƏN BU CƏZİRƏYƏ GETMƏYƏYDİM” .......... 20

AZƏRBAYCAN XALQININ DƏRDİ BİZİM DƏRDİMİZ, SEVİNCİ BİZİM SEVİNCİMİZDİR .......... 25

ERMƏNİ MƏSƏLƏSİ TÜRKLƏR ÜÇÜN ÖLÜM-DİRİM MƏSƏLƏSİDİR .......... 33

QARDAŞ QARDAŞA BORC VERMƏZ, ƏL TUTAR .......... 40

*ƏLAVƏLƏR*

I. N.Nərimanovun V.İ.Leninə məktubu .......... 46

II. N.Nərimanovun Türkiyədə Azərbaycanın səfirinə məktubu .......... 49

III. RK/b/P MK Siyasi Burosunun iclası .......... 50

Redaktor V. Qasımov

**Azərbaycan Respublikası Milli Məclisi Aparatının mətbəəsi**

Sifariş 320. Tiraj 500.

Bakı, Azad Mirzəyev küçəsi, 235.